## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI

**Bayraq -** bir ölkəni, təşkilatı, quruluşu və ya birliyi işarələyən, əsasən parçadan olan, dövlət rəmzi olub, müharibələr, inqilablar, nümayişlər zamanı öndə, insanların başı üzərində aparılan, müxtəlif rəsmi təşkilatların binalarının qarşısında dirəyə asılan və həmin təşkilatı təmsil edən, Vətən uğrunda şəhid olanların qəbirləri üzərinə salınan dövlət atributudur. Bayrağın üzərindəki hər rəng və simvol bir özəl məna daşıyır.

Azərbaycan Respublikasının dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri onun Milli Bayrağı – Dövlət bayrağıdır. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.

**Üçrəngli bayrağın simvolları**

İlk dəfə üçrəngli bayraq ideyasını Azərbaycan istiqlaliyyətinin ideoloqlarından olan Əli bəy Hüseynzadə gündəmə gətirib.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq göy, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**Mavi rəng -** Azərbaycan xalqının türk mənşəli olmasını bildirir, mavi rəng türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng, həm də simvolik məna daşıyır. Göy rəng XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirirdi.

**Qırmızı rəng -** müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafa istəyi ifadə edir. XVIII əsrin sonlarında Fransa Burjua inqilabından sonra kapitalizmin inkişafı ilə bağlı Avropa ölkələrində böyük irəliləyişlər baş verib. Həmin dövrdə proletariatın kapitalizm quruluşuna qarşı mübarizəsi olub. Bu illərdə qırmızı rəng Avropanın simvoluna çevrildi.



**Yaşıl rəng –** İslam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir.

Azərbaycan bayrağının üç rəngi: türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur.

Qırmızı rəngin üzərində ortada aypara və səkkizguşəli ulduzun təsviri verilib. Tarixçilərin bildirdiklərinə görə, Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunanda orada rənglərin nəyi ehtiva etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər var.

**Səkkizguşəli ulduzun və ayparanın açıqlaması**

Tarixçilərin bildirdiklərinə görə, Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunanda orada rənglərin nəyi ehtiva etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər var.

Aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra həmin gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib və həmin dində olan başqa xalqlara da keçib. Bayrağın üzərindəki aypara türk xalqlarının simvoludur. Səkkizguşəli ulduzun mənasına gəlincə bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır.

Tarixdə səkkizguşəli ulduzun mənası belə açıqlanır: türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir. Azərbaycan bayrağında ulduz Azərbaycan memarlıq üslubunda geniş istifadə olunub və səkkiz guşə-səkkiz türk xalqının simvoludur.

## DÖVLƏT GERBİ



Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqillik rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları qızılıdır.

**Dövlət gerbindəki simvolların məna və funksiyaları**

Dünya heraldika sənətində dövlət gerblərinin qalxan üzərində verilməsi təcrübəsi geniş yayılıb. Qalxandan dünya xalqları min illər boyu müdafiə, eləcə də milli simvolların nümayiş etdirilməsi məqsədilə istifadə edib. Bu da bəllidir ki, Şərq xalqlarında qalxan milli döyüş alətlərindən biri olub, qəhrəmanlıq simvoludur. Qərbdəkilərdən fərqli olaraq, şərq qalxanı dairəvi formadadır. Dövlət gerbinin həmin qalxan üzərində təsvir edilməsi Azərbaycanın Şərq dövləti olduğunu, millətin Şərq sivilizasiyasına mənsubluğunu, xalqın şərqliliyini bildirməyə xidmət edir.

Qalxanın içərisindəki dairəvi mavi, qırmızı və yaşıl rəng çalarları Azərbaycan bayrağında ifadə olunan türklüyü, müasirliyi və islamlığı təcəssüm etdirir.

Qalxanın ortasında yerləşən səkkizguşəli ulduz günəşin simvoludur. Günəş (eləcə də, Ay) dünya heraldika sənətində «əbədi, daimi, sonsuz həyat» mənasındadır. Günəş simvolunun ağ rənglə verilməsi isə «əmin-amanlıq, sülhsevərlik, barış» mənalarını verir.

Günəşin mərkəzində alov təsviri "Odlar Yurdu"nu – Azərbaycanı simvolizə edir. Ümumiyyətlə, alov gerbşünaslıqda tərəqqi, inkişaf rəmzi sayılır. Bu simvolda qədim azərbaycanlılarda mövcud olmuş atəşpərəstlik, eləcə də oda sitayişlə bağlı milli ("Novruz" bayramında oda münasibət) ənənələr də nəzərə alınmışdır.

## DÖVLƏT HİMNİ

**Musiqisi:** Üzeyir Hacıbəyovun,
**Sözləri:** Əhməd Cavadındır.

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu!**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər,**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə**
**Cümlə gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## “ZİYALILIQ KÜTLƏVİ OLA BİLMƏZ. ALİM, ŞAİR, BƏSTƏKAR, RƏSSAM, YAZIÇI ARTIQ BUNLAR FİTRİ İSTEDADA MALİK OLAN ADIMLARDIR”

**Heydər Əlirza oğlu Əliyev**



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti “Ulu öndər” və “Azərbaycan xalqının ümummilli lideri” titullarının rəsmi daşıyıcısı

Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir.

Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, Onu bir Ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və Onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır.

O, istər Sovet xalqları müstəvisində və istərsə də Şərqi Avropadan tutmuş, hətta, Afrika ölkələrinə qədər olan xalqların tarixində rol oynamış, onların yaxından tanıdığı və onların həyatına təsir edəcək proseslərə imza atmış bir şəxsiyyətdir. Ona görə də, hesab edirik ki, bu gün Ulu öndəri hörmətlə anarkən Heydər Əliyevşünasların və Heydər Əliyev sevərlərin, tədqiqatçıların araşdırmalı olduğu elmi istiqamətlərdən biri də, məhz, bu olmalıdır.



**İlham Heydər oğlu Əliyev**

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub.

1967-1977-ci illərdə Bakı şəhərində 6 saylı orta məktəbdə təhsil alıb.

1977-1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) təhsil alıb. MDBMİ-ni bitirdikdən sonra, 1982-ci ildə həmin institutun aspiranturasına daxil olub.

1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini alıb və 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi olub.

1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışıb və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik edib.

1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olub. Ümummilli lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak edib.

1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilib.

1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidentidir.

1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilib.

2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olub. 2003-cü ilin yanvar ayında isə Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilib.

2003-cü il avqustun 4-də Milli Məclisdə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin olunub. Bununla əlaqədar deputat səlahiyyətlərinə xitam verilib.

İlham Əliyev 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib. Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verib.

2004-cü ildə Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomu və medalı ilə təltif edilib.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 faiz səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib.

2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə isə seçicilərin 84,54 faiz səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib.

2018-ci il aprelin 11-də keçirilən seçkilərdə də İlham Əliyev seçicilərin 86,02 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini bilir.

Evlidir. Üç övladı, beş nəvəsi var.



**Mehriban Arif qızı Əliyeva**

Mehriban Əliyeva (tam adı: Mehriban Arif qızı Əliyeva) - Azərbaycan Respublikasının Birinci vitse-prezidenti; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyat yoldaşı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri.

Əliyeva Mehriban Arif qızı 1964-cü il 26 avqustda Bakı şəhərində ziyalı ailəsində anadan olub. O, yazıçı, ədəbiyyatşünas, Azərbaycanın Əməkdar elm xadimi, filologiya elmləri doktoru (1947), professor Mir Cəlal Paşayevin və görkəmli jurnalist, pedaqoq, Əməkdar elm xadimi Nəsir İmanquliyevin nəvəsidir.

Atası Arif Paşayev Azərbaycanın görkəmli alimi, pedaqoqu, ictimai xadim, Milli Elmlər Akademiyasının akademiki, Dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, professordur. 1996-cı ildən indiyədək "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektorudur.

Anası Aida İmanquliyeva şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professordur. Aida İmanquliyeva Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor – qadındır. Onun çoxsaylı elmi əsərlərində (3 monoqrafiya 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida İmanquliyeva 1992-ci il 19 sentyabrda vəfat etmişdir.

Mehriban Əliyeva 1982-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. O, müsahibələrinin birində peşə seçimini bu cür dəyərləndirir:

O, 1988-ci ildə İ.M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib və 1988-1992-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib.

Mehriban Əliyeva 1983-cü ildə İlham Əliyevlə ailə həyatı qurub. Leyla, Arzu və Heydər adlı üç övladı var.

# Səmədova Mənzurə



*Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi heç kim səndən ala bilməz.*

*(Əbül Fərəc)*

Elm, təhsil cəmiyyətin həyatında rol oynayan ən önəmli faktorlardan biridir. Heç bir xalqın inkişafına təhsil olmadan nail olunmaz. Bir çox mütəfəkkirlərimizin fikirlərinə görə təhsilsiz, elmsiz hər bir xalq məhv olunmağa məhkumdur. Yüksək ixtisaslı kadrların formalaşması da təhsilsiz mümkün deyil. Təhsilsiz insan cilasız aynaya bənzər. Müsahibimiz də gələcəyin savadlı kadrlarından biridir.

Səmədova Mənzurə Natiq qızı 2 iyun 2003-cü ildə Yevlax şəhəri Salamabad kəndində dünyaya göz açmışdır. Mənzurə 2009-cu ildə ilk dəfə olaraq Yevlax şəhəri Salamabad kənd tam orta məktəbində təhsil almağa başlayıb. İndi də elə həmin məktəbin 10-cu sınıf şagirdidir. Məktəbə başladığı ilk günlərdən savadı, dünyagörüşü və nümunəvi şagird olması ilə seçilib. Mənzurə tarix,ədəbiyyat və Azərbaycan dili kimi humanitar yönümlü fənlere daha çox meyilli olduğunu vurğulayır. Elə bu səbəbdən də o, gələcəkdə hüquqşünas olmaq istəyir. Mənzurə bütün müəllimlərini çox sevir, lakin Anagül müəllimə və Nicat müəllimin yerinin onun üçün daha ayrı yeri olduqlarını deyir. Təsadüfi deyil ki, bu müəllimlərin dərs dediyi humanitar fənləri daha çox sevir, onları həvəslə oxuyur. Mənzurə həm məktəb rəhbərliyi, həm də müəllimləri tərəfindən çox sevilir. Çünki o, məktəbinə bir çox uğurlar qazandırmışdır. Mənzurə Respublika Fənn Olimpiadalarında adını uğur siyahısına yazmışdır. Onun həyatda idealı dil-ədəbiyyat müəllimi Ülkər müəllimədir. Görünür, Mənzurənin belə nümunəvi şagird olmasında Ülkər müəllimənin rolu böyükdür. Mənzurə başa düşür ki, savadlı insan hərtərəfli-universal biliyə malik olmalıdır. Ona görə də o, boş vaxtlarında mütaliə edir, bədii kitablar oxuyur. Mənzurə musiqiyə qulaq asmağı da çox sevir. Elə atalarımız da nahaq yerə "Musiqi ruhun qidasıdır" demiyiblər. Mənzurə gələcəyin hüquqşünası olmaq üçün çox çalışır, onu ürəkdən istəyir. Bunun üçün də onun ən sevdiyi hobbiləri arasında test işləmək və kitab oxumaq yer alır. Uşaq



ailənin aynasıdır. Mənzurənin belə savadlı olmasının səbəbi elmli, təhsilli ailədə böyüməsidir. Onun ailəsi 6 nəfərdən ibarətdir.

Atası Səmədov Natiq Mabud oğlu musiqi müəllimidir. Uşaqlarının musiqini sevməsində onun böyük payı vardır. Anası Səmədova Şəlalə Tərxan qızı övladlarına təhsili sevdirməsində böyük rol oynayır. Mənzurəgilin geniş ailəsi var. Onun daha 2 bacısı- Səmədli Aynurə, Səmədova Sona və qardaşı-Səmədov Amin vardır. Hər 4 övladının gələcəyə savadlı, təhsilli kadr və nümunəvi insan kimi yetişdirilib formalaşmasında ataları Natiq bəyin və anaları Şəlalə xanımın əvəzsiz zəhməti vardır.

***Kollektivimiz adından biz də Mənzurəyə bu uğur yolunda inamla, əzmlə addımlamağı arzulayır, gələcək həyatında nailiyyətlər diləyirik.***





# Suna Hüseynova



*Xalqı təhsilli etməyin üç yolu var: məktəb, məktəb və yenə məktəb.*
*(Lev Tolstoy)*

Tarixə yön vermiş mütəfəkkirlər, alimlər, elm adamları, filosoflar, yazıçılar təhsilin, məktəbin önəmini dəfələrlə vurğulamışlar. Təhsil dünyanı dəyişmək üçün ən yaxşı silahdır. Yaxşı təhsil isə xoşbəxtliyin digər adıdır. Ulu öndər Heydər Əliyevin də dediyi kimi " Təhsil millətin gələcəyidir. Bizim gələcəyimizin zəmanətçiləri də uşaqlardır. Belə hərkəsə örnək ola biləcək uşaqlardan biri də Suna Hüseynovadır.



Hüseynova Suna Səbuhi qızı 2007-ci il 15 iyun Mingəçevir şəhərində anadan olmuşdur. 2013- cü ildə məktəbə ilk addımlarını atmışdır. Hal-hazırda M.Pənahov adına 01 saylı tam orta məktəbin 6-cı sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən fəallığı ilə seçilən Suna dəfələrlə fəxri fərmanlar, diplomlarla qiymətləndirilmişdir. Elmə, təhsilə belə həvəs göstərməsində müəllimlərinin, valideynlərinin payı əvəzsizdir. Elə bu müəllimlər içərisində bir müəllimə də var ki, Sunanın ona sevgisi çox böyükdür. Bəhs etdiyimiz insan Sunanın sinif rəhbəri Gülnar müəllimədir. Suna müəlliminin ona ötürdüyü bilik və bacarıqlar sayesində elm öyrənməyin incəliklərinə bələd olur, təhsilin həyatda necə böyük bir amil olduğunu dərindən başa düşür. Təsadüfi deyil ki Sunanın həyatdakı idealı sinif rəhbəri- Gülnar müəllimədir. Sunanın gələcəkdə ən böyük arzusu mütəxəssis bir həkim olub, insanların sağlamlığının qeydinə qalmaqdır. O, həkimlik peşəsinin necə ciddi bir peşə olduğunu anlayır və bunun üçün çox çalışmaq lazım olduğunu da dərk edir. Çünki insanlar öz canlarını ona əmanət edəcəklər. Son illərdə daha da təkmilləşən bu peşənin sahibi olmaq çox böyük bir xoşbəxtlikdir. Sunanın nailiyyətləri isə bitib tükənmir. O, Yevlax rayonu üzrə fənn müsabiqələrində riyaziyyat fənni üzrə birinci yerə layiq görülmüşdür. Suna bütün fənləri sevərək oxuyur. Lakin onlar arasında Azərbaycan dili, riyaziyyat və ingilis dili fənlərinə xüsusi sevgisi var. Suna boş zamanlarında kitab oxuyur, mütaliə edir. O bilir ki, məhz kitablar sayəsində onun dünyagörüşü artacaq. Bədii kitab oxumaq Sunanın hobbisinə çevrilib. Suna həm məktəb dərslərinə, həm də dərsdən kənar bədii ədəbiyyat oxumağa düzgün zaman ayırır ki, hər birində öndə ola bilir, nümunəvi şagird kimi seçilir. Sunanın dərslərə belə marağı müəllimlərdə də sevinc hissinin oyanmasına səbəb olur.

Sunanın ailəsi 5 nəfərdən ibarətdir. Atası Hüseynov Səbuhi Vaqif oğlu sürücü olaraq fəaliyyət göstərir. Anası Hüseynova Pərizad Vaqif qızı isə evdar qadındır. Sunanın bir bacısı və bir qardaşı vardır. Bacısı Hüseynova Səmaya və qardaşı Hüseynov Yusifə



Suna mənəvi cəhətdən dəstək olur, onlara nümunə olur. Övladlarının belə dünyagörüşlü, təhsilə həvəsli yetişdirilməsində valideynlərinin əziyyəti, zəhməti əvəzsizdir.

***Biz də jurnalımız adından Sunaya gələcək işıqlı həyatında uğurlar arzulayır, onun savadlı bir həkim kimi fəaliyyət göstərməni diləyirik.***



# Səma Hüseynova



*Bir elm öyrənmək istədikdə sən*
*Çalış ki, hər şeyi kamil biləsən*
*Kamil bir palançı olsa da insan*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*
*(Nizami Gəncəvi)*

Ehtiyac əməyi, əmək isə biliyi doğurmuşdur. Bu sözlərin gerçəkliyini ümumi tarixə nəzər salsaq çox yaxşı görə bilərik. Tarix boyu elmin, təhsilin dünyada əsas güc, qüvvə olduğunu hamı bilir. Hər millətin tərəqqisi və fəaliyyətinin əsas amili elm və təhsildir. Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi-inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır. Elm bir gücdür,elm öyrənmək isə böyük bir zəhmətdir. Həmsöhbətimiz Səma Hüseynova da elm öyrənməyin zəhmətini hərşeydən üstün tutur.



Hüseynova Səma Səbuhi qızı 16 fevral 2010-cu ildə dünyaya göz açmışdır. O, təhsilə ilk dəfə 2016-cı ildə başlamışdır. Səma hal-hazırda Mübariz Pənahov adına 01 saylı tam orta məktəbinin 3-cü sinfində oxuyur. Səma müəllimləri, məktəb rəhbərliyi tərəfindən nümunəvi, əlaçı şagird kimi seçilir.

O, hər zaman dərslərinə məsuliyyətlə yanaşmış, müəllimlərinin sevimlisi olmuşdur. Səma oxuduğu məktəb tərəfindən bir çox fəxri fərmanlarla qiymətləndirilmişdir.

O, Azərbaycan dili və riyaziyyat fənlərini çox sevir, onların dərinliklərinə bələd olmağa çalışır. Səmaya təhsili, elmi sevdirən müəllimi Göyçək müəllimədir. Səma məktəbə başladığı ilk vaxtlardan dərslərinə olan həssaslığı ilə müəllimlərinin diqqətini çəkməyi bacarmışdır. Səma azyaşlı olmasına baxmayaraq yaşıdları ilə müqayisədə daha geniş dünyagörüşünə, elm və bacarıq vərdişlərinə sahibdir. Dərslərini əla qiymətlərlə oxuyan Səma bu uğur yolunda inamla addımlayır. Səma gələcəkdə savadlı bir həkim kimi fəalliyyət göstərmək istəyir. Bu məqsədinə çatmaq üçün də çox səy göstərir, əzmlə çalışır. Səma boş vaxtlarında rəsm çəkməyi, həyatda gördüklərini kağıza rəngli karandaşlarla köçürməyi çox sevir. Onun həyatdakı idealı anasıdır. İdman etmək isə ən sevdiyi hobbisidir. “Sağlam bədəndə sağlam ruh olar” sözlərini şüara belə çevirib. Səmanın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Hüseynov Səbuhi Vaqif oğlu sürücüdür. Anası Hüseynova Pərizad Vaqif qızı isə evdar qadındır. Səmanın bir bacısı Hüseynova Suna və bir qardaşı Hüseynov Yusif var. Ailədə uşaqlar bir-birlərinə örnək olmağa çalışıllar, eyni zamanda dəstək olurlar. Valideynlər zəhmətlərinin bəhrələrini görəndə sevinir. Çünki onların əziyyətləri qarşılıqsız qalmayıb.

***Biz də kollektivimiz adından belə bacarıqlı, məsuliyyətli Səmaya uğurlar diləyirik. Qoy uğurları ilə hamını sevindirsin.***





# Elgün Hüseynli



*Nursuz göz kimidir elmsiz ürək*
*Nadan insanlıqdan uzaqdır gerçək.*

*(Əvhədi Marağayi)*

Təhsil-insanın və Vətənin gələcəyi üçün çox önəmli bir meyardır. Bəzən deyirlər ki, insan ömrünün müəyyən bir dövrü təhsildən asılıdır. Təhsil insanın dünyagörüşünü, həyata baxışını formalaşdırır. Təhsilin insanlara gətirdiyi fayda hamıya bəllidir. Bir cəmiyyətin inkişaf səviyyəsi onun təhsili ilə bilavasitə bağlıdır. Belə ki təhsil insanın xarakterini tərbiyə edib onun özündən əmin, məsuliyyətli bir insan olmasına xidmət edir və doğru davranış qaydaları qazandırır. Çünki təhsil insanın özünü tanımasına, həqiqəti dərk etməsinə kömək edir. Təhsilin faydalarını dərk edənlərdən biri də müsahibimiz Elgün Hüseynlidir.

Hüseynli Elgün Elçin oğlu 23 noyabr 2006-cı ildə Yevlax rayonunun Xaldan qəsəbəsində dünyaya göz açmışdır. 2013-cü ildə Elgün məktəbə, biliyə, elmə ilk addımlarını atmışdır. Hal-hazırda Elgün Yevlax rayonu Aşağı Salamabad tam orta məktəbinin 6-cı sınıf şagirdidir. Həm müəllimlərinin, həm də ailəsinin sevimlisinə çevrilən Elgün gələcəkdə sürücü olmaq niyyətindədir. Bunun üçün də dəqiq və rasional olmağı da yaxşı bilir.

Elgün bütün dərslərinə məsuliyyətlə, dərin həssaslıqla yanaşır. Hərtərəfli bilik sahibi olmağa çalışır. Müəllimlərini çox sevir və onların sözlərinə diqqətlə qulaq asır, dərslərinə həmişə hazır olur. Dərsdə də aktivliyini qoruyur. Fiziki-tərbiyə və təsviri-incəsənət fənlərinə daha çox həvəsi var, onlara xüsusi maraq verir. Gülzadə müəllimə və Xəzanə müəllimə isə Elgünün ən çox sevdiyi müəllimlərdir. Təsadüfi deyilki, həyatda özünə ideal olaraq müəllimlərini görür.

Elgün boş vaxtlarından kitab oxumağı, mütaliə etməyi çox sevir. Kitabların içində başqa bir dünya olduğunu deyir. Futbolu isə həddən artıq sevir. Boş vaxtlarında futbol oynayır, idman edir.

Elgünün ailəsi 4 nəfərdən ibarətdir. Atası- Hüseynov Elçin Heydər oğlu ustalıq sənəti ilə məşğul olur, bənna kimi fəaliyyət göstərir. Övladlarına uşaqlıqdan bəri zəhmətkeşliyin necə böyük bir nemət olduğunu aşılayır. Anası Hüseynova Cəmilə Səyyad qızı evdar qadındır. Elgünün bir qardaşı vardır. Qardaşı Hüseynli Orxan da qardaşı Elgün kimi orta məktəbdə oxuyur. Qardaşlar bir-birlərinə

dəstək olub kömək edirlər. Övladlarını kiçik yaşlardan zəhmətə, əməyə alışdıran valideynləri- Elçin bəy və Cəmilə xanımın zəhmətləri əvəzsizdir.

*Biz də "Çağdaş Təhsil" jurnal kollektivimiz adından Elgünə uğurlar arzulayır, nailiyyətlərinin davamını diləyirik. Daim qazandığı uğurlarla sevənlərinin və valideynlərinin fəxri, sevinci olsun.*



# İsmayılova Nəzrin



*Ey hörmətli müəllim,*
*Hər könüldə yerin var.*
*Hər kənddə, hər şəhərdə*
*Sənin meyvələrin var.*
*Əkdiyin ağacların*
*Gülü-çiçəyi solmaz.*
*Dünyada sənin kimi*
*Barlı bağban tapılmaz.*
*(Bəxtiyar Vahabzadə)*

Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o, insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər. Öyrənilməsi lazım olanlar həddindəm artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır.

Bilik bir gücdür. Elm öyrənmək isə böyük bir zəhmətdir. Jan Jak Russo demişdir: " Döyüşdə silah lazım olduğu kimi həyatda da bilik lazımdır".

Jurnalımızın bu sayındakı həmsöhbətimiz İsmayılova Nəzrin Elxan qızı da elmin həyatda necə böyük bir nemət olduğunu dərk edir.

İsmayılova Nəzrin Elxan qızı 29 mart 2008-ci ildə Şəki şəhərində anadan olmuşdur. Nəzrin təhsil ocağı sayılan məktəbə ilk addımlarını 2014-cü ildə atıb. Hal-hazırda o, Şəki şəhəri 19 saylı tam orta məktəbin 6-cı sinif şagirdidir. Nəzrin məktəbdə həm nümunəvi davranışlarına görə, həm də dərslərinə məsuliyyətli yanaşmasına görə müəllimləri tərəfindən sevilir. O, daha ilk günlərdən müəllimlərin sevimlisinə çevrilib. Nəzrin balamız qeyd edir ki, gələcəkdəki ən böyük arzusu məhz müəllim olmaqdır. Bu haqda danışarkən müəllimlik peşəsinin müqəddəsliyini qeyd etməmək olmaz. "Mənə bir hərf öyrədənin köləsi olaram" . Bu sözlər İslam dünyasının parlaq simalarından olar Həzrəti Əliyə məxsusdur. Din, əqidə, məslək uğrunda uca şəhidlik zirvəsinə yüksələn

Həzrəti Əlinin öyrədənin- müəllimin əməyini belə yüksək qiymətləndirməsinin səbəbini anlamaq üçün ilk növbədə müəllimlik peşəsinin mahiyyətinə nəzər salmaq gərəkdir. Nəzrin də bütün müəllimlərini sevir, onlara hörmət edir. Lakin Qumru müəllim və Həmidə müəllimə olan sevgisi dərindir. Nəzrin yaşına görə istedadlı, savadlı, dünyagörüşlü uşaqdır.

6-cı sinifdə oxuyan Nəzrin riyaziyyat,Azərbaycan dili və həyat bilgisi fənlərini çox sevir. O, boş vaxtlarından belə dərs oxuyur, elmə olan sevgisi isə dərindir. Nəzrinin həyatda idealı da Həmidə müəllimdir.

4 nəfərlik ailənin böyük övladı olan Nəzrin ailənin sevimlisidir. Atası- İsmayılov Elxan





Beydulla oğlu 26 yanvar 1972-ci ildə anadan olmuşdur. Hal-hazırda xarici ölkədə işləyir. Anası- İsmayılova Validə Camal qızı 7 oktyabr 1976-cı ildə dünyaya göz açmışdır, evdar xanımdır. Nəzrinin bir balaca bacısı var. Bacısı İsmayıllı Dərya Elxan qızı 9 dekabr 2009-cu ildə doğulmuşdur. Hal-hazırda balaca Dərya 3-cü sinifdə oxuyur. Nəzrin bacısına daim dəstək olur, ona dərslərində kömək edir. Bacısına daim yaxşı nümunə olmağa çalışan Nəzrin özündən yaşca balacalara yol göstərir. Valideynləri- Elxan bəy və Validə xanım övladlarına elmin, biliyin önəmli olduğunu hələ daha balaca yaşlarından aşılayıblar.

***Biz də redaksiyasımız adından Nəzrin balamıza həyatında xəyal etdiyi bütün məqsədlərə, arzulara nail olmasını ümid edirik. Və inanırıq ki, daima valideynlərinin başını uca edib, onları hər zaman fərəhləndirəcək.***








# Aylin Zeynalova



*Dil açanda ilk dəfə ana söyləyirik biz*
*“Ana dili” adlanır bizim ilk dərsliyimiz*
*İlk mahnımız laylanı anamız öz südüylə*
*İçirir ruhumuza bu dildə gilə-gilə*
*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır*
*Bu dil bir birimizlə əhdi peymanımızdır*
*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi*
*Bu dil əcdadımızın bizə miras verdiği*
*Qiymətli xəzinədir...onu gözlərimiztək*
*Qoruyub nəsillərə biz də hədiyyə verək.*
*( Bəxtiyar Vahabzadə)*



Savadlı, təhsilli insanla ünsiyyət qurarkən heç yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi faktlar, gözəl kəlamlar eşidirsən. Bilik insanı güclü edir. Çünki bilikli insan həm də ziyalı insandır. Ona görə ki belə insanlar yaşadığı cəmiyyətin bütün keyfiyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini,dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyaların, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər.

İndi isə keçid edək müsahibimiz Aylin Zeynalova haqqında yazıya.

Zeynalova Aylin Azər qızı 1 iyun 2012-ci ildə Yevlax rayonu Aran qəsəbəsində anadan olmuşdur. Aylin ilk dəfə 2018-ci ildə elm, təhsil ocağı sayılan məktəbə yollanmışdır. Hal-hazırda o, M.Pənahov adına 1 saylı tam orta məktəbin 1-ci sinif şagirdidir. Aylin elə ilk vaxtlardan yaşıdlarından istər dərsə marağı, istərsə də davranışları baxımından xeyli fərqlənib. Müəllimləri də onun elmə sevgisini, həvəsini qiymətləndirmişlər. Bu, Aylini elmə daha da həvəsləndirmiş və gələcəkdə müəllim olmaq məqsədini yaratmışdır. Təsadüfi deyil ki, Aylinin

həyatdakı idealı onların davranışlarını öz həyatına rəhbər tutduğu müəllimləridir. Aylinin ən çox sevdiyi fənn riyaziyyatdır. Elə burdan da dəqiq insan olduğu anlaşılır.





Riyaziyyat fənnini tədris edən Q.Kəklik müəlliməni özünə ideal tutur. Aylin boş vaxtlarında anasına kömək edir. Onların ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Zeynalov Azər Qurban oğlu hələ uşaqlıqdan övladlarına zəhməti, məsuliiyəti, elmi, təhsili aşılayır. Anası-Abbasova Aygün Qabil qızı isə evdar qadındır. Aylinin bir qardaşı vardır-Zeynalov Süleyman. Onlar bir-birlərinə daim kömək edirlər.

***Biz də kollektivimiz adından Aylinə uğurlar arzulayır, nailiyyətlər diləyirik. Qoy məqsədinə gedən yolda savadı, təhsili ona işıq saçsın, valideynlərini, müəllimlərini sevindirsin.***



# Leyla Musayeva



*Bu gün yeni dərs ili*
*Başlanır səhər səhər...*
*Məktəblərə yollanır*
*Al yanaqlı körpələr*
*O dalında çantası*
*Gedən uşağa bax bir*
*O da, görəsən, belə*
*Məktəbəmi tələsir?*

*(Bəxtiyar Vahabzadə)*

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir. Elm həm də dünyagörüşüdür, insanı yüksəldən mənəvi ucalıqdır. İnsan yalnız elmi, bacarığı ilə başqalarından fərqlənə, onlardan üstün mövqeyə malik ola bilər. Ata-babalarımız da elmə, elm adamına həmişə yüksək qiymət vermiş, ehtiramla yanaşmışdır.

Bugünki müsahibimiz Leyla Musayevadır.

Musayeva Leyla Elmir qızı 15 avqust 2011-ci il Yevlax rayonu Aran qəsəbəsində dünyaya göz açmışdır.

Leyla təhsil ocağı sayılan məktəbə ilk addımlarını 2018-ci ildə atmışdır. Hal-hazırda o, M.Pənahov adına 01 saylı tam orta məktəbin 1-ci sinif şagirdidir. Leyla azyaşlı olmasına baxmayaraq öz məntiqi, dünyagörüşü və savaşı ilə müəllimlərini heyran edir. Bu yaşlardan dərslərə məsuliyyətlə yanaşmasına görə seçilir. Dərslərdə aktivliyini qoruyur, müəllimin tapşırırlarını vaxtında yerinə yetirir. Leyla həm ailəsinin, həm də müəllimlərinjn sevimlisidir. Leylanın həyatda idealı nənəsidir.

Leyla boş vaxtlarında anasına kömək edir. Lakin o, heçbirşeyin dərslərinə maneə törətməsinə icazə vermir. Ən sevdiyi fənn isə informatikadır. Dövrümüz də kompüter əsri olduğu üçün yeni nəsilin bu sahəyə daha çox marağı var.

Müəllimlərini də çox sevir , amma R,Şəfəq müəlliməyə xüsusi rəğbət bəsləyir. Leyla gələcəkdə müəllim olmaq arzusundadır.

Leylanın ailəsi 5 nəfərdən ibarətdir. Atası-Musayev Elmir Nurəli oğlu xüsusi təsərrüfatla məşğul olur. Anası-Musayeva Vəfa Adil qızı isə evdar qadındır. Leylanın bir qardaşı və bir bacısı vardır. Qardaşı Musayev Turqaydır. Bacısı-Musayeva Nuray 1 – ci sinifdə oxuyur.

Biz də kollektivimiz adından Leylaya uğurlar arzulayır, nailiyyətlər diləyirik. Qoy məqsədinə gedən yolda hərşey ürəyincə olsun.



# Sübhan Əliyev



*Elm əvvəlcədən yazılmış bir kitabdır. Və alimlər onu yazmağa deyil, oxumağa çalışmalıdırlar.*
*(Əbu Turxan)*

bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və güzərənamızı daha mənalı etmək , səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik. Bunu indidən dərk edən, jurnalımızın bugünki qəhrəmanı Əliyev Sübhandır.

Əliyev Sübhan Azər oğlu 3 may 2012-ci ildə Yevlax rayon Aran qəsəbəsində dünyaya göz açmışdır. Sübhan təhsilə ilk addımlarını 2018-ci ildə atmışdır. Hal-hazırda o, M.Pənahov adına 01 saylı tam orta məktəbin 1-ci sinfində təhsil alır. Sübhan həm məktəb rəhbərliyinin, həm də müəllimlərinin sevimlisidir. Çünki o, bütün dərslərinə diqqətlə qulaq asır, böyük həssasiyyətlə yanaşır, məktəbdə həm savadına , həm də davranışlarına görə nümunəvi şagirdi kimi tanınır. Bu da onun ailəsini çox sevindirir.

Sübhan ən çox Ana dilimizin qrammatikasını öyrənməyə həvəslidir. Bəxtiyar Vahabzadənin də dediyi kimi: “ Bu dil bizim eşqimiz, ruhumuz, canımızdır”.

Sübhan balamız gələcəkdə polis olmaq arzusundadır. O, bu peşəni çox sevir və özünü gələcəkdə polis olaraq görür.

Sübhan vaxtını dərslərinə sərf edir. Hələ azyaşlı olmasına baxmayaraq, o, təhsilin vacibliyini dərindən dərk edir. Boş vaxtlarında isə anasına yardım edir.

Sübhanın ailəsi 4 nəfərdən ibarətdir. Atası-Əliyev Azər Vidadi oğlu hərbçidir. Sübhanın içində olan polis olmaq sevgisi məhz atasından ona aşılanmışdır. Təsadüfi deyil ki, Sübhanın həyatda idealı atasıdır. Anası Əliyeva Zibər Mehmət qızı isə evdar qadındır. Sübhan evin sonbeşiyidir. Onun böyük qardaşı var. Qardaşı Əliyev Ayhan isə 3-cü sinifdə oxuyur. Sübhan qardaşından da nümunə götürür. Onlar bir-birlərinə dəstək olurlar.

***Biz də jurnalımız adından Sübhana uğurlar diləyir, onu gələcəkdəki uğurlarına görə indidən təbrik edirik. Qoy həyatının günəsi ömrünə daim işıq saçsın.***



# Əhmədova Nurgül



*Tərbiyə-nəfslə, təhsil-biliklə bağlıdır. İnsan yetkinləşdikcə bu iki proses bir-birini tamamlayır.*

*( Viktor Hüqo )*

gözəl vaiz, ən yaxşı hidayət, aşkar gözəllik, ən yaxşı dost, ən faydalı xəzinə və ən şərafətli həqiqətdir.

İndi isə keçək bugünkü müsahibimiz Əhmədova Nurgülə. Əhmədova Nurgül Rahim qızı 17 avqust 2012-ci ildə Şəki şəhəri Suçma kəndində dünyaya göz açmışdır. Ailəsinin sonbeşiyi, sevimlisi olan Nurgül dünyaya gələn kimi ailəsinə sevinc bəxş etmiş, sevindirmişdir. Balaca Nurgül qızımız 2018-ci ildə Şəki şəhəri Suçma kənd tam orta məktəbinə ilk addımlarını atmışdır. Hal-hazırda həmin məktəbin 2 a sinfində təhsil alır. Müəllimlərinin təqdirini elə birinci ildən qazanan Nurgül derslerini yüksək səviyyədə oxuyur, müəllimlərinə diqqətlə qulaq asır. Ən sevdiyi fənlər isə Ana dili, riyaziyyat, rəsmdir. Müəllimlərinin hamısına hörmət edir. Nigar müəllimi isə daha çox sevir. Dərslərində çox fəaldır. Balaca Nurgül qızımız hələ gələcəkdə nə olacağını tam dəqiqləşdirməyib. Əslində həm həkim, həm də müəllim olmaq arzusundadır. Ən əsası buna inanırıq ki, gələcəkdə hansı peşəyə yiyələnsə də, çox savadlı və peşəkar insan olacaq Nurgül.

Nurgül boş zamanlarında rəsm çəkməyi çox sevir. Ən sevdiyi hobbisi isə rəqs etməkdir.

Nurgülün ailəsi 5 nəfərdən ibarətdir. Nurgül ailəsinin sonuncu övladıdır. Atası- Əhmədov Rahim Məsim oğlu 23 aprel 1976-ci ildə anadan olmuşdur, ticarətçidir. Anası- Hacıyeva Nigar İlham qızı 1 avqust 1982-ci ildə anadan olmuşdur. Hal-hazırda işinin peşəkarı və öz işini sevən bir müəllimdir. Nurgülün bir bacısı və bir qardaşı vardır. Bacısı - Əhmədova Nuray Rahim qızı tələbədir, 2-ci kursda oxuyur. Qardaşı- Əhmədov Nahid Rahim oğlu isə 11-ci sinifdə təhsil alır. Nurgülün həyatdakı idealı anasıdır.

***Redaksiyamız adından balaca Nurgülə uğurlar və nailiyyətlər arzulayırıq. Yolu açıq olsun.***





# Cavadova Nailə



*Ey müəllim, aləti təzvirdir əşrarə elm*
*Qılma əhli-məkrə təlimi-məarif zinhar!*
*Hiylə üçün elm təlimin qılan müfsidlərə*
*Qətliam üçün verər cəllada tiği-abidar!*
*Hər nə təzvir etsə, əhli-cəhl ona olmaz səbat*
*Əhli-məkr elmdir, əsli-fəsadi ruzigar!*
*(Məhəmməd Fizuli)*

Müəllim olan yerdə nə lazım günəş, onsuzda günəşdir özü müəllim. Müəllim ən səmimi, ən həssas və ən böyük varlıqdır. Müəllimlik həyatda müqəddəs bir peşədir. Müəllimin hər sözü həqiqətdir. Uşaq olarkən bizim üçün ən əhəmiyyətli insan ana-atamız olur. Onların sözündən çıxmamağa çalışırıq. Onların dediklərinə başqalarının dediklərindən daha çox inanır, bir yerimiz ağrayanda onların üstünə qaçırıq. Düşünürük ki, qayğımıza ana-ata qədər kimsə qala bilməz. Sonra böyüyürük, məktəb illəri başlayır. Həyatımıza yeni nümunə götürüləcək insanlar daxil olurlar. Onların içərisində sevimli müəllimlərimiz xüsusi yer tuturlar. Bugünə qədər ancaq ananın dediklərinə əməl etdiyimiz halda , indi müəllimlərimizin dediyinə nöqsansız şəkildə əməl etməyə çalışırıq. Bəzən hətta anamıza etiraz edir, "Axı müəllimim sənin kimi demir" cümləmizlə ananın səmimi qısqanclığına, gülməyinə, bu cümlə ilə müəllimimizlə anamızı birləşdirən bir xatirənin yaranmasına səbəb oluruq. Belə müəllimlərdən biri də neçə-neçə şagirdlə biliyini paylaşmış, onların gələcəyinin memarı Nailə Cavadovadır.

Cavadova Nailə Vəli qızı 1970-ci il 23 iyul Goranboy rayonu Dəliməmmədli qəsəbəsində anadan olmuşdur. O, məktəbə-təhsil ocağına ilk addımlarını 1977-ci ildə atmış və 1-ci sinifə daxil olmuşdur. Məktəbi əla qiymətlərlə, yüksək akademik göstərici ilə bitirmiştir ki, bu da 1987-ci ilə təsadüf edir. Hər bir gənc emosional insan kimi Nailə xanımda məktəbi bitirdiyi zaman kövrəklik hissi keçirmişdir. Məktəbi bitirən kimi o, GDU-nun ümumi texniki fənlər və fizika fakültəsinə yüksək nəticə ilə qəbul olmuşdur. Tələbəlik illəri də məktəb illəri

kimi şən keçən Nailə xanım üniversiteti də gözəl nəticə ilə bitirmişdir. 1992-ci ildə ailə quran Nailə xanım bu vaxtdan etibarən Şəki şəhəri Böyük Dəhnə kəndində yaşamağa başlamışdır. Həmin ildən Böyük Dəhnə kənd məktəbində ixtisası üzrə müəllim işləməyə başlamışdır. Nailə xanım qeyd edir ki, işlədiyi müddətdə kollektivi ilə, şagirdləri ilə tam səmimi olmağa çalışmışdır, bilik və bacarıqlarını kimsədən əsirgəməmişdir. Nailə xanımın 3, bir-birindən gözəl övladı vardır. Oğlu, Təmrazlı Eşqin Elçin oğlu 1993-cü ildə dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra təhsilinə Trakiya Dövlət Universitetində davam etmişdir və buranı da bitirərək vətənimizə geri qayıtmışdır. Nailə xanımın ikinci övladı olan Təmrazlı Şəhla Elçin qızı 1996-cı ildə dünyaya gəlmişdir. Şəhla da ali təhsil almış və Şəki Dövlət Universitetinin psixologiya fakültəsini bitirmişdir. Nailə xanımın sonuncu övladı, ailəsinin sonbeşiyi sayılan Təmrazlı Elnarə Elçin qızı 2002-ci ildə anadan olmuşdur. Elnarə artıq tələbədir. Nailə xanımın həyat yoldaşı Cavadov Elçin Nəriman oğlu hal-hazırda Şəki rayon Böyük Dəhnə 1 nömrəli kənd tam orta məktəbində təlim-tərbiyə işləri üzrə müdir müavini işləyir.

***Biz də "Çağdaş Təhsil" jurnalı adından Nailə xanımı uğurlarına və nailiyyətlərinə görə təbrik edir,cansağlığı arzulayırıq. Ümid edirik ki, Nailə xanım kimi peşəkar müəllimlərin yetişdirdikləri uğurlu məzunların və şagirdlərin sayı çox olacaq. Nailə xanıma şəxsi həyatında və sənətində uğurlar diləyirik. Qoy həyatının günəşi daim yoluna işıq saçsın.***

# Allahverdiyeva Aysun



*Kitab insan ruhunun müqəddəs yazısıdır.*

*( M.Qorki )*

Alimlərin çoxsaylı hesablamalarına görə insan ömrünün yarısından çoxunu öyrənməklə keçirir. İnsanın yaşaması üçün nələrisə öyrənməyi şərtdir. Atalarımız əbəs yerə deməmişdir ki, “Bu dünya gör-götür dünyasıdır”. İnsan daim öyrənir, kəşf edir və dünya daha yaşanılası yerə çevrilir. Əsas mövzuya keçməzdən əvvəl bu sözlərimi hikmətli bir kəlamla yekunlaşdırıram: “Beşikdən qəbrədək elm öyrənin”.

Jurnalımızın bu sayındakı müsahibimiz isə Allahverdiyeva Aysundur. Allahverdiyeva Aysun Elşən qızı 2 avqust 2004-cü ildə Rusiya Federasiyası Odintsovo şəhərində dünyaya gəlmişdir. Dünyaya gəlişi ilə ailəsinə sevinc, bərəkət, firavanlıq gətirmişdir. İllər keçmiş, günlər keçmiş və, nəhayət, Aysun məktəbə gedəcəyi yaşa gəlib çatmışdır. 2010-cu ildə Aysun Goranboy şəhəri Qatır Məmməd adına 2 nömrəli tam orta məktəbin 1-ci sinfinə ilk qədəmlərini atmışdır. Onun ilk məktəbə atdığı ilk qədəmləri təhsil həyatında Aysuna daim uğur gətirmişdir. Tezliklə müəllimlərinin sevgisini və təqdirini qazanmışdır. Aysun öz istedadı, savadı, məntiqi, dünyagörüşü ilə müəllimlərinin qəlbində özünə taxt qurmuşdur. Valideynləri də Aysunun istedadını görün daha da sevinmiş, onu daim dəstəkləmişlər. Aysun hal-hazırda Qatır Məmməd adına 2 nömrəli tam orta məktəbin 10-cu sinfində təhsil alır. Dərslərini əla qiymətlərlə oxuyur və dərs əlaçısıdır. Aysun bütün fənləri diqqətlə oxuyur. Amma daha çox humanitar yönümlü fənlərə meyil edir. Ən sevdiyi fənlər də Azərbaycan dili, tarix və ədəbiyyatdır. Aysun eyni zamanda bütün müəllimlərinə hörmət edir. Lakin elə müəllimlər də var ki, onlar Aysun üçün müəllimdən daha artığını ifadə edirlər. Onlar Nahidə müəllim və Hürü müəllimdirlər. Onlar Aysuna daim dəstək olur, ona kömək edirlər.

Aysunun gələcəkdə ən böyük arzusu hüquq fakültəsinə yüksək balla daxil olub və peşəkar hüquqşünas olmaqdır. Təsadüfi deyil ki, ən sevdiyi fənlər də humanitar yönümlüdür. Bu fənlərə olan marağı Aysuna məqsədinə gedən yolda bələdçilik edəcəkdir. Aysun məqsədinə çatmaq üçün gecə-gündüz çalışır, böyük səylə hazırlaşır. İnanırıq ki, Aysun bu məqsədinə çatacaq.

Aysun asudə vaxtlarında kitab oxumağı və rəsm çəkməyi sevir. Rəsmə o qədər marağı və meyli var ki, rəsm çəkmək artıq Aysunun hobbisinə çevrilmişdir.

Aysun ailəsinin sonbeşik övladıdır. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası- Allahverdiyev Elşən Qüdrət oğlu 9 aprel 1970-ci ildə Tərtər şəhərində anadan olmuşdur. Anası- Allahverdiyeva Sevinc Şikar qızı 21 fevral 1973-cü ildə dünyaya göz açmışdır. Aysunun bir böyük qardaşı var. Qardaşı- Allahverdiyev Ayxan Elşən oğlu 23 dekabr 1998-ci ildə anadan olmuşdur. Ayxan daim bacısına dəstək olur, ona məqsədinə gedən yolda stimul verir.

***Biz də “Çağdaş Təhsil” jurnalı adından həmsöhbətimiz Aysuna uğurlar arzulayır, nailiyyətlər diləyirik. Yolu açıq olsun!***











# Sadıqova Aysel



*Ağıl köhnəlməyən geyimdir, bilik tükənməyən mədən.*
*( Qırğız atalar sözü )*

"Kitab böyük müəllimdir" demişdir böyük şairimiz Bəxtiyar Vahabzadə. Əslində bu fikrə nə qədər dərin fikir verməsək də, bu cümlə böyük məna ifadə edir. Bu məsələ qədim zamanlardan tutmuş indiyə kimi öz aktuallığını qoruyur. Qədim zamanlarda çox kitab oxuyan şəxsə ziyalı, bilgili kimi yanaşarmış, hər məsələdə ondan məsləhət alarmışlar. Təsadüfi deyil ki, o dövrün padşahları, sultanları, əmirləri öz saraylarında böyük bir kitabxana saldırarmışlar. Jurnalımızın bu sayındakı qəhrəmanımız da kitab oxumağı çox sevən Sadıqova Ayseldir.

Sadıqova Aysel Firəddin qızı 5 sentyabr 2006-cı ildə Goranboy rayonunda anadan olmuşdur. Dünyaya gəlişi ilə ailəsinə sevinc bəxş etmişdir. Vaxt keçir, vədə yetişir, nəhayət, Ayselin gözlədiyi o böyük gün gəlir. 2012-ci ildə Aysel Goranboy şəhəri 2 saylı tam orta məktəbin 1-ci sinfinə ilk qədəmlərini atır. Gün keçdikcə özünü müəllimlərə daha da sevdirir, düşüncə təfəkkürü və məntiqinə görə həmyaşıdlarından seçilir. Bunu valideynləri də sevinclə qarşılayırlar. Aysel hal-hazırda Goranboy şəhəri 2 saylı tam orta məktəbin 7-ci sinfində təhsil alır. Bütün müəllimlərə diqqətlə qulaq asır, onları dinləyir, verdiyi tapşırıqları vaxtı-vaxtında yerinə yetirir, tövsiyələrinə əməl edir. Bu, çox sevindirici haldır.

Ayselin yaşının az olmasına baxmayaraq, o, nümunəvi şagirddir. Aysel bütün fənləri yüksək səviyyədə oxuyur, lakin Azərbaycan dili, riyaziyyat və tarix fənlərini daha çox sevir. O, eyni zamanda bütün müəllimlərinə hörmət edir. Nahidə və Ruziyyə müəllimin isə Ayselin həyatında, formalaşmasında böyük rolu vardır. Onlar Ayselə daim dəstək olur, onu gələcəyə doğru həvəsləndirirlər. Aysel müəllimlərinə o qədər bağlıdır ki, hətta Nahidə müəllim Ayselin həyatdakı idealıdır. Ayselin gələcəkdə ən böyük arzusu ali təhsil almaq və savadlı Azərbaycan dili-ədəbiyyat müəllimi olmaqdır. Bunun üçün o, çox çalışır, məqsədinə gedən yolda inamla və əzmlə addımlayır.

Boş zamanlarında Aysel kitab oxumağı çox sevir. Hətta o qədər sevir ki, kitab oxumaq onun hobbisinə çevrilib. Aysel daha çox tarixi kitablara üstünlük verdiyini qeyd etdi.



Ayselin ailəsi 5 nəfərdən ibarətdir. Atası- Sadıqov Firəddin Cümşüd oğlu 3 fevral 1972-ci ildə Goranboy şəhərində dünyaya gəlmişdir və hal-hazırda ustadır. Anası- Əmirova Mahirə Yaqub qızı 4 yanvar 1980-ci ildə Goranboy şəhərində

anadan olmuşdur. Evdar xanımdır. Aysun ailəsinin ilk gözağrısı, böyük övladıdır. Onun 1 bacısı və 1 qardaşı vardır. Bacısı- Sadıqova Aysun Firəddin qızı 19 fevral 2008-ci il Goranboy şəhərində anadan olmuşdur və hal-hazırda 6-cı sinifdə təhsil alır. Qardaşı- Sadıqov Hüseyn Firəddin oğlu isə 8 yanvar 2010-cu ildə anadan olmuşdur və 4-cü sinifdə təhsil alır.

***Biz də kollektivimiz adından Ayselə uğur və müvəffəqiyyətlər arzulayırıq. İnanırıq ki, o, xəyalındakı peşəya qovuşacaq və xoşbəxt olacaqdır.***







# Hacıyeva Aytac



*Elminizə elm əlavə edən şəxs sizin dostunuzdur.*

*(Corc Mur: irland yazıçısı)*




Ana dilimiz ən böyük sərvətimizdir. Minillər boyu dilimiz cilalanmış, bir çox təsirlərə məruz qalmışdır. Dilimizə bir çox alınma sözlər daxil olmuşdur. Lakin bu qədər müdaxiləyə baxmayaraq, dilimiz öz təbiiliyini qorumuşdur. Ana dilimiz bizim gələcək nəsillərə hədiyyəmizdir. Odur ki, onu gözbəbəyimiz kimi qorumalıyıq. İndi müsahibimiz Hacıyeva Aytac ilə tanış olaq.

Hacıyeva Aytac Xəyyam qızı 23 iyul 2004-cü ildə Goranboy şəhərində dünyaya göz açmışdır. 2010-cu ildə Goranboy şəhəri 2 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 10-cu sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən müəllimləri Aytacdan razılıqlarını bildirmişlər. Aytac ilk günlərdən fəallığı, aktivliyi, düşüncə təfəkkürü, istedadı və məntiqinə görə digərlərindən fərqlənmişdir. Bunu müəllimləri və valideynləri hiss etmişdir. Aytac müəllimlərinə diqqətlə qulaq asır, onların verdiyi tapşırıqları vaxtı-vaxtında yerinə yetirir. Aytac heç bir fənnə fərq qoymadan hamısını yüksək səviyyədə oxuyur, çünki bilir ki, məktəbdə öyrəndiyi biliklər onun beyninə həkk olunacaq, bütün ömrü boyu lazım olacaq. Aytac bütün müəllimlərinə hörmət edir, onları çox sevir. O qeyd edir ki, məktəb bizim ikinci evimiz, müəllimlərimiz isə ikinci ailəmizdir.

Aytacın gələcəkdə ən böyük arzusu ali təhsil alıb, atası kimi neft-qaz mühəndisi ixtisası üzrə mütəxəssis olmaqdır. Bunun üçün Aytac çox çalışır. Aytacın 10-cu sinifdə oxuduğunu nəzərə alarsaq, bu illər onun həyatında istədiyi peşəyə qovuşması üçün həlledici illəridir. Bunu özü də dərk edir. Odur ki, məqsədinə çatmaq üçün gecə-gündüz çalışır. Valideynləri də daim ona dəstək olur, onu ürəkləndirirlər.

Aytac çox uğurlu və nailiyyətli şagirddir. O, məktəblilər arasında keçirilən şahmat yarışında 3-cü yer tutmuş, diplom və hədiyyələrlə təltif olunmuşdur. Valideynləri və müəllimləri onun bu uğurunu gördükcə daha da çox sevinmişdir.

Aytac boş zamanlarında şahmat oynamağı, kitab oxumağı və idman etməyi çox sevir. O, şahmatla profes-



sional səviyyədə məşğul olur və bundan həzz alır. Şahmat oynamaq artıq Aytacın ən sevdiyi hobbisinə çevrilib.

Aytacın ailəsi 5 nəfərdən ibarətdir. Atası- Hacıyev Xəyyam Əşrəf oğlu 22 oktyabr 1973-cü ildə Goranboy şəhərində anadan olmuşdur, hal-hazırda neft-qaz mühəndisidir. O, Qarabağ müharibəsi iştirakçısıdır və bir çox fəxri medallarlar təltif olunmuşdur. Anası- Süleymanova Sahibə Sahib qızı 21 yanvar 1984-cü ildə Goranboy şəhərində anadan olmuşdur, hal-hazırda evdar xanımdır. Aytac həyatda ən böyük idealının atası kimi uğurlu, anası kimi güclü və ən əsası Vətənə layiq bir şəxs olduğunu bildirib. Aytacın bir bacı və bir qardaşı vardır. Aytac ailəsinin ilk gözağrısı, böyük övladıdır. Bacısı- Hacıyeva Aysu Goranboy şəhəri 2 saylı tam orta məktəbin 7-ci sinif şagirdidir, 12 yaşı var. Qardaşı- Hacıyev Hüseyn 4 fevral 2014-cü ildə anadan olmuşdur. 5 yaşı var.

Aytac bacı və qardaşına dəstək olur, onlara kömək edir, nümunə götürüləcək bir bacı olmağa çalışır.

***Biz də inanırıq və ümid edirik ki, Aytac öz məqsədinə çatacaq. Eyni zamanda redaksiyasımız adından Aytacı təbrik edir, uğur və nailiyyətlər diləyirik.***

# Aslanzadə Fatimə



*Elm öyrənmək heç vaxt gec deyil.*
*(İbn Sina: Şərq filosofu və həkimi)*

Elm öyrənməyin, təhsil almağın yaşı yoxdur. İstənilən yaşda biliklənmək, təhsil almaq olar. Təhsil almağa gec başlamaq da ayıb, səhv bir şey deyil. Əsas buna həvəslə, ürəklə, istəyərək başlamaqdı. Başlamaq da uğurun yarısıdır.

Jurnalımızın bu sayındakı müsahibimiz isə Aslanzadə Fatimədir. Aslanzadə Fatimə Cavid qızı 26 dekabr 2010-cu ildə Gəncə şəhərində dünyaya göz açmışdır. Daha uşaq yaşlarından şəkilli nağıl kitablarına olan həvəsi onun gələcəyin istedadı olacağının xəbərçisi imiş. Fatimə məktəbə getmək, qələm tutmağı, ilk sözlərini Ana, Vətən sözlərini yazmaq üçün tələsirdi. Nəhayət, 2017-ci ildə ən böyük uşaqlıq arzusuna qovuşur, məktəbə ilk addımlarını atır. İlk günlərdən müəllimlərinin təqdirini almış, onların sevgisini qazanmışdır. Fatimə hal-hazırda Goranboy şəhəri 2 saylı tam orta məktəbin 3-cü sinif şagirdidir. Azyaşlı olmasına baxmayaraq, məntiqinə və düşüncə təfəkkürünə görə digərlərindən fərqlənir. Bu, onu oxumağa, biliyə, elmə daha da çox həvəsləndirir. Fatimə heç bir fənnə fərq qoymadan hamısını yüksək səviyyədə oxuyur. Müəllimlərinin bir dediğini iki etmir, onların tapşırıqlarına və tövsiyələrinə canla-başla əməl edir. Eyni zamanda Fatimə bütün müəllimlərinə hörmət edir. Lakin Firduzə müəlliməyə isə ürəkdən bağlıdır, onu çox sevir. Firduzə müəllim də Fatimənin gələcəyi üçün əllərindən gələni əsirgəmir.

Fatimənin gələcəkdə ən böyük arzusu ali tibb təhsili alıb, peşəkar və öz işində mütəxəssis bir həkim olmaqdır. Xüsusilə də, terapevt olmağı arzulayır.

Qeyd etdiyimiz kimi Fatimə çox istedadlı şagirddir. O, dərslərini yüksək səviyyədə oxuyur. Müəllimləri də onun bu biliyini dəyərləndirirlər. Fatimə dərslərini əla qiymətlərlə oxuyub əlaçı olduğuna görə məktəb direktoru Aygün müəllim tərəfindən diplomla təltif olunmuş, təlim və tərbiyəsinə görə təşəkkürnamə ilə qiymətləndirilmişdir.

Fatimə boş zamanlarında kitab oxumağı və rəsm çəkməyi sevir. Beləcə də o, beyninə istirahət verir. Fatimənin çox maraqlı bir hobbisi var. O, yay aylarında səyahət etməyi, yeni yerlər kəşf etməyi çox sevir.

Fatimənin ailəsi 4 nəfərdən ibarətdir. Atası- Aslanov Cavid İsmayıl oğlu 1 may 1988-ci ildə Goranboy şəhərində anadan olmuşdur. Hal-hazırda ticarətlə məşğuldur və Xalq Sığortanın nümayəndəsidir. Anası- Aslanova Aygün İlham qızı 22 sentyabr 1991-ci ildə anadan olmuşdur. Ali təhsillidir və hal-hazırda evdar xanımdır. Fatimə ailəsinin ilk övladıdır. Onun bir balaca



bacısı var. Bacısı- Aslanzadə Zəhra Cavid qızı 27 aprel 2014-cü ildə anadan olmuşdur. Fatimə bacısına daim yaxşı bir nümunə olmağa çalışır və bunu bacarır.

Arzu edirik ki, Fatimə öz istədiyi həkimlik peşəsinə qovuşsun, uğurlu və nailiyyətli olsun.









# Quluzadə Nərmin



*Dil açanda ilk dəfə ana söyləyirik biz*
*"Ana dili" adlanır bizim ilk dərsliyimiz*
*İlk mahnımız laylanı anamız öz südüylə*
*İçirir ruhumuza bu dildə gilə-gilə*
*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır*
*Bu dil bir birimizlə əhdi peymanımızdır*
*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi*
*Bu dil əcdadımızın bizə miras verdiği*
*Qiymətli xəzinədir...onu gözlərimiztək*
*Qoruyub nəsillərə biz də hədiyyə verək.*
*( Bəxtiyar Vahabzadə)*

Savadlı, təhsilli insanla ünsiyyyət qurarkən heç yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi fak-tlar, gözəl kəlamlar eşidirsən. Bilik insanı güclü



edir. Çünki bilikli insan həm də ziyalı insandır. Ona görə ki belə insanlar yaşadığı cəmiyyətin bütün keyfiyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini,dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyaların, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər.

Bugünkü müsahibimiz isə Quluzadə Nərmindir. Quluzadə Nərmin Ceyhun qızı 27 fevral 2004-cü ildə Goranboy şəhərində dünyaya göz açmışdır. 2010-cu ildə isə Goranboy şəhəri 2 saylı tam orta məktəbin 1-ci sinfinə ilk addımlarını atmışdır. Hal-hazırda həmin məktəbin 10-cu sinfində oxuyur. Məktəbə başladığı ilk günlərdən indiyə kimi fəallığı ilə seçilmiş, müəllimlərinin qəlbində taxt qurmuşdur. Nərmin bütün müəllimlərinə diqqətlə qulaq asır, hamısına hörmət edir. Lakin Kəmalə və Nəzmiyyə müəllimləri daha çox sevir, onların sözlərinə qanunmuş kimi əməl edir. Müəllimləri də bunu hiss edir. Nərmin bütün

dərslərini yüksək səviyyədə və əla qiymətlərlə oxuyur. Biologiya, tarix, coğrafiya, Azərbaycan dili fənlərinə daha çox maraq və həvəs salmışdır.

Nərminin gələcəkdə ən böyük arzusu ali təhsil almaq və biznesmen və ya biznes üzrə mütəxəssis bir kadr olmaqdır. Nərmin artıq məktəbin son illərini yaşayır. Onun üçün bu illər həlledici məqamdır. Buna görə də Nərmin məqsədinə gedən yolda çox çalışır, inamla və əzmlə irəliləyir.

Nərmin savadlı olduğu qədər də, incəsənət sahəsində də istedadlıdır. Bunu onunla izah etmək olar ki, o, şəhər uşaq incəsənət məktəbinin rəsm və əl bacarıqları sinfini müvəffəqiyyətlə bitirmişdir. Eyni zamanda Nərmin 9-cu sınıf buraxılış imtahanını da uğurla başa vurmuşdur. Boş zamanlarında rəsmlə məşğul olur, musiqiyə qulaq asır. Ən sevdiyi hobbisi isə səyahət etməkdir.

Nərminin ailə tərkibi 4 nəfərdən ibarətdir. Nərmin ailəsinin sonuncu övladıdır. Atası- Quliyev Ceyhun Sayad oğlu 30 sentyabr 1976-





cı ildə Balakən şəhərində anadan olmuşdur, hal-hazırda kadr üzrə inspektor vəzifəsində çalışır. Anası- Quliyeva Bahar Vəliyullah qızı 29 mart 1977-ci ildə Zaqatala şəhərində doğulmuşdur. Kompüter mütəxəssisidir. Qeyd edək ki, Nərminin həyatdakı idealı məhz anasıdır. O, anası kimi savadlı və dünyagörüşlü olmaq istəyir. Nərminin bir böyük bacısı var. Bacısı- Quliyeva Nəzrin Ceyhun qızı 10 sentyabr 2000-ci il tarixində Goranboy şəhərində dünyaya göz açmışdır. Hal-hazırda Bakı Slavyan Universitetinin 3-cü kurs tələbəsidir.

**Redaksiyamız adından Nərminə gələcək həyatında uğurlar və müvəffəqiyyətlər diləyirik. Arzumuz budur ki, öz uğurları ilə daim valideynlərinin, müəllimlərinin başını uca etsin!**



# Vəliyeva Nazdı



*Hər gün insan üçün yeni bir həyatdır.*
*( R.Beyker )*

"Sağlam həyat sağlam idmanın nəticəsidir". Bu deyim idman sahəsində çalışan həkimlərin apardıqları araşdırmalardan sonra özləri üçün seçdikləri devizdir. İdman dövlətin böyük bir qüvvəsidir və insanın, dövlətin həyatında böyük rol oynayır. Belə ki, idman həyat və sağlamlıqdır. Sağlam insan üçün hər bir şeyi etmək daha rahatdır. Hal-hazırda dövlətimiz də idman sahəsinin daha da inkişaf etməsi üçün böyükmiqyaslı tədbirlər görür. Ölkəmizin hər yerində idman kompleksləri, arenaları inşa edilir və fəaliyyət göstərməyə davam edir. Bu sahəyə marağı olan uşaqlar həvəsləndirilir. Jurnalımızın bu sayındakı müsahibimiz də idmana olan marağı, idmanla professional səviyyədə məşğul olması ilə seçilir. Gəlin onunla tanış olaq.

Vəliyeva Nazdı Bəxtiyar qızı 12 aprel 2006-cı ildə Goranboy şəhərində dünyaya göz açmışdır. Uşaq yaşlarından aktivliyi ilə yaşıdlarından fərqlənmişdir. Daha o zamanlardan valideynləri Nazdının idmana olan həvəsini hiss etmişlər. Nazdı 2012-ci ildə Goranboy şəhəri 1 saylı tam orta məktəbin 1-ci sinfinə ilk qədəmlərini atmışdır. Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. İdmana olan marağı, professional şəkildə məşğul olması Nazdının diqqətini dərslərindən yayındırmamış, əksinə daha da təhsilə önəm verməyi lazım görmüşdür. Müəllimləri də ondan razılıqlarını bildirirlər. Nazdı bütün fənləri yüksək səviyyədə oxuyur, amma ən çox fizika və riyaziyyat kimi texniki-dəqiq elmlərə önəm verir, onlarla məşğul olmağı sevir. Nazdı eyni zamanda bütün müəllimlərinə hörmət edir. Çünki bilir ki, müəllimlərini ömürlərini onların gələcəyi üçün adayırlar. Nazdı Şəfa və Elnur müəllimi isə daha çox sevir, onların hər dediyinə əməl edir. Müəllimləri də Nazdını həm təhsilinə, həm də təlim-tərbiyəsinə görə təqdir edir, onu nümunə olunacaq bir şagird kimi qiymətləndirirlər. Nazdı da müəllimlərinin bu təqdirlərini boşa çıxartmamaq üçün çox çalışır, əllərindən gələni əsirgəmir. Nazdı həm məktəbinin, həm də ölkəsinin adını uca etmişdir. O, kingboks üzrə 2 qat dünya, 3 qat Azərbaycan, 9 qat zona çempiyonu olmuş, bir çox diplomlarla, medallarla, hədiyyələrlə təltif olunmuşdur. Valideynləri onunla fəxr edirlər. Fəxr edirlər ki, belə istedadlı, vətənə layiq, vətəninin başını uca edən, onun bayrağını yad ellərdə yüksəklərdə qürurla dalğalandıran övlad yetişdirmişlər.

Nazdı boş zamanlarında da idmanla məşğul olmağı sevir. Hətta bu, onun ən sevdiyi hobbisidir. Təbii ki, bu təsadüf deyil. Nazdının gələcəkdə ən böyük arzusu polis olmaq, vətəninin millətinin təhlükəsizliyini qorumaq, asayişini təmin etməkdir. Nazdı vətəninə layiq igid bir qız ola bilmək üçün çox çalışır. Polislik şərəfli peşədir. İnsanlar öz canlarının təhlükəsizliyini polislərə əmanət edirlər. Nazdının həyatdakı idealı isə məşhur Azərbaycan idmançısı Zabit Səmədovdur.

Nazdı vətənpərvər mühitdə böyümüşdür. Bu mühiti isə onun valideynləri yaratmışlar. Valideynləri övladlarının sağlam, xoşbəxt gələcəyi



üçün əllərindən gələni əsirgəmirlər. Nazdının geniş ailəsi var. Onun ailə tərkibi 6 nəfərdən ibarətdir. Atası- Vəliyev Bəxtiyar Sərdar oğlu 26 dekabr 1977-ci ildə Goranboy rayonunda anadan olmuşdur. Hal-hazırda sürücü olaraq fəaliyyət göstərir. Anası- Məmmədova Gülnurə Hafiz qızı 3 noyabr 1982-ci ildə Goranboy rayonu Qurbanzadə kəndində anadan olmuşdur, evdar xanımdır. Nazdıgil ailədə 4 uşaqdırlar. Onun 2 bacısı və 1 qardaşı vardır. Böyük bacısı- Vəliyeva Aytac Bəxtiyar qızı 10 avqust 2003-cü ildə anadan olmuşdur. Hal-hazırda Goranboy şəhəri 1 saylı tam orta məktəbin 11-ci sinfində təhsil alır. Digər bacısı- Vəliyeva Aynurə Bəxtiyar qızı 19 noyabr 2004-cü ildə Goranboy şəhərində anadan olmuşdur. Hal-hazırda 1 saylı tam orta məktəbin 8-ci sinfində təhsil alır. Nazdının 1 balaca qardaşı vardır. Qardaşı- Vəliyev Sərdar Bəxtiyar oğlu 15 may 2007-ci ildə anadan olmuşdur, 6-cı sinifdə təhsil alır.

***Jurnalımız adından Nazdını təbrik edir, gələcək həyatında uğur və müvəffəqiyyətlər arzulayırıq. Ümidimiz odur ki, Nazdı xəyalındakı polislik peşəsinə qovuşsun, vətəninə layiq igid bir qız olsun, valideylərinin başını həmişə uca etsin.***





# Abdulhüseynova Rahimə






*Kəşf etmək hamının gördüyünü görmək, lakin hələ heç kəsin ağlına gəlməyəni düşünmək deməkdir.*

*( A.R.Dyerdi )*

Elm sərkərdə , təcrübə isə onun əsgəridir. Ümumiyyətlə bilik nəzəri və praktik olmaqla 2 yerə bölünür. Nəzəri bilikləri biz hələ məktəb yaşlarından öyrənirik. Praktik bilik vasitəsilə isə bizdə təcrübə formalaşır. Təcrübə artdıqca, praktiki biliklərimiz çoxaldıqca daha da mütəxəssisləşirik. Təcrübə əldə etdiyimiz bilikdən istifadə edəndə formalaşır. Odur ki, elm öyrənmək qədər, ondan istifadə etməyi də öyrənmək böyük hünər istər. Nəysə, sözü çox uzatmadan keçək həmsöhbətimiz Abdulhüseynova Rahiməyə.

Abdulhüseynova Rahimə Loğman qızı 19 dekabr 2010-cu ildə Goranboy rayonu Qaradağlı kəndində dünyaya göz açmışdır. Hələ uşaq yaşlarından elm öyrənməyə olan həvəsi balaca qızımız Rahimənin valideynləri heyrətləndirmiş və sevindirmişdir. Dəftərə, qələmə olan marağı onu elm yolunda addımlamağa vadar etmişdir. İllər keçir və, nəhayət, balaca Rahimə öz arzusuna qovuşur. O, 2016-cı ildə Goranboy rayonu Mübariz Səfərov adına Qaradağlı kənd orta məktəbinin ilk-birinci sinfinə qədəmlərini qoyub. Hal-hazırda Rahimə həmin məktəbin 3-cü sinfində təhsil alır. Rahimə məktəbə başladığı ilk günlərdən indiyə kimi fəallığını qoruyub saxlamış, müəllimlərinin sevgisini qazanmışdır. Bütün müəllimləri ondan razılığını bildirir, Rahimənin gələcəyin istedadı kimi qiymətləndirirlər. Rahimə heç bir fənnə fərq qoymur, hamısını yüksək səviyyədə oxuyur. Bütün müəllimlərinə hörmət edir və onlara diqqətlə qulaq asır. Lakin sinif rəhbəri olan Tamilə müəllimi daha çox sevir, onu hər sözü qanunmuş kimi əməl edir. Tamilə müəllim də həmişə Rahiməyə kömək edir və dəstək olur.

Rahimə dərs əlaçısıdır. Onun dərslərindəki qazandığı müvəffəqiyyəti görən valideynləri də ürəkdən sevinirlər. Rahimənin ən böyük arzusu ali təhsil alıb gələcəkdə savadlı bir müəllim kimi fəaliyyət göstərməkdir. Bunun üçün o, daim çox çalışır. Müəllimlik dünyanın ən müqəddəs peşəsidir. Valideynləri də Rahiməyə bu yolda daim dəstək olur, onu ürəkləndirirlər. Rahimə boş zamanlarında rəsm çəkməyi çox sevir.

Rahimə çox mədəni bir ailədə, sevgi və hörmət mühitində böyümüşdür. Onun ailə tərkibi 4 nəfərdən ibarətdir. Atası- Abdulhüseynov Loğman Hüseyn oğlu 1 sentyabr 1983-cü il Göyçə mahalı Aşağı Sorca kəndində anadan olmuşdur. Hal-hazırda isə "Qanun və Səlahiyyət" qəzetində baş redaktorun 1-ci müavini vəzifəsində çalışır. Anası- Hüseynova Aysel Əhməd qızı 24 iyun 1986-cı il İsmayıllı rayonunda anadan olmuşdur, ali təhsillidir. Əvvəllər müəllim olaraq fəaliyyət göstərsə də, hal-hazırda işləmir. Rahimə evin sonbeşiyidir. Onun bir böyük qardaşı var. Rahimə belə istedadlı olmaqda qardaşına oxşayıb. Qardaşı-Abdulhüseynov Fərid Loğman oğlu 24 mart 2006-cı ildə anadan olmuşdur. Fərid hal-hazırda 6-cı sinifdə oxuyur. Dərslərini əla qiymətlərlə oxuyur. Fəridin gələcəkdə ən böyük arzusu isə ali təhsil alıb polis olmaqdır.

**Biz də redaksiyamız adından balaca Rahiməyə uğurlar arzulayır, nailiyyətlər diləyirik. Qoy həyatının günəşi ömrünə daim nur ələsin.**







# Xəlilova Ləman



*Ömrün müddəti deyil, bu ömrü necə yaşadığın əhəmiyyətlidir.*

*( H.Holley )*

Müasir dünyada elm, təhsil inkişaf etdikcə sivilizasiyalar arası beynəlxalq münasibətlər daha da genişlənir, millətlərarası dünyagörüşü daha da irəliləyir. Bu da texnikanın inkişafına təkan verir. Texnika inkişaf etdikcə dünyanın kəşf olunmayan, ixtira edilməyən şeyləri gün üzünə çıxır. Elm, bir növ bizim maraq dairəmizi genişləndirir.

İndi isə keçid edək əsas məsələyə. Bugünkü həmsöhbətimiz Xəlilova Ləmandır. Xəlilova Ləman Qabil qızı 5 mart 2003-cü ildə Goranboy rayonunda anadan olmuşdur. 2009-cu ildə Goranboy şəhəri Qatır Məmməd adına 2 saylı tam orta məktəbin 1-ci sinfinə ilk qədəmlərini atmışdır. Hal-hazırda həmin məktəbin son sinfində-11-ci sinfində təhsil alır. Ləman dərk edir ki, bu il onun həllediçi ilidir. Məqsədinə bir addımlıq yolu qalıb. Bunu üçün çox çalışır, əlindən gələnin ən yaxşısını edir. Valideynləri də ona bu yolda dəstək olur, onu ürəkləndirirlər. Ləmanın ən sevdiyi fənlər kimya və fizika fənləridir. Elə təsadüfi deyil ki, onun ən böyük məqsədi də kimya fakültəsinə yüksək nəticə ilə qəbul olmaq və oranın bitirib peşəkar, mütəxəssis bir kimyaçı olmaqdır. Ən sevdiyi müəllimlər olan Afaq müəllim, Təhminə müəllim və Sevinc müəllim də ona kömək edirlər. Onlar daim Ləmanı yüksəklərdə görmək istəyirlər. Müəllimlərinin bu istəyini doğrultmaq üçün Ləman da böyük səylə hazırlaşır. Ləmanın həyatdakı ən böyük idealı da kimya müəllimidir.

Ləman məktəbdə oxuduğu müddətdə həm məktəb rəhbərliyinin, həm müəllimlərinin, həm də valideynlərinin başını uca etmiş, onları daim sevindirmişdir. Qeyd edək ki, Ləmanın bir sıra uğur və nailiyyətləri vardır. Respublika üzrə keçirilmiş fənn olimpiyadalarında Ləman müvəffəqiyyət qazanmış, sertifikatla təltif olunmuşdur. Eyni zamanda onun rayon üzrə keçirilən tədbirlərdə fəal iştirak etdiyi üçün fəxri fərmanı da var.

Boş zamanlarında ən çox kitab oxumağı və mahnıya qulaq asmağı çox sevir. Mahnıya qulaq asmaq artıq Ləmanın hobbisinə çevrilmişdir.

Ləmanın ailəsinin sonbeşiyidir. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası-Xəlilov Qabil Məzahir oğlu 9 fevral 1973-cü il tarixində Goranboy rayonu Qarasüleymanlı



kəndində anadan olmuşdur. Hal-hazırda Goranboy rayonu "Aztelekom" MMC-də mühəndis vəzifəsində çalışır. Anası-Yusifova İlhamə Vasif qızı 23 aprel 1973-cü ildə Goranboy rayonunda Kəpənəkçi kəndində anadan olmuşdur və hal-hazırda Goranboy rayonu Azərsu ASC-nin 9 saylı Regional laboratoriyasında laborant vəzifəsində çalışır. Ləmanın bir böyük bacısı vardır. Bacısı-Xəlilova Hürü Qabil qızı 16 iyul 1999-cu ildə Goranboy rayonunda anadan olmuşdur. İndi isə Bakı Qızlar Universitetinin psixologiya fakültəsinin 4-cü kursunda təhsil alır.

*Redaksiyamız adından Ləmana uğur və nailiyyətlər diləyirik. Arzumuz budur ki, istədiyi universitetin istədiyi ixtisasa yüksək nəticə ilə qəbul olsun, valideynlərini və müəllimlərini sevindirsin. Həyat yolunda şans daima ondan yana yaşıl işıq yandırsın.*









# Vəlizadə Ayxan



*Ağıl-kamal verdi sənə yaradan*
*Çalışıb hər sirri öyrən hər zaman.*
*( Əvhədi Marağayi )*

Ölkəmizin çiçəkli gələcəyi üçün dünyagörüşlü, istedadlı, təhsilli uşaqlar yetişdirmək ən vacib şərtdir. Çünki gələcəyimiz uşaqların əlindədir. Jurnalımızın bugünkü qəhrəmanı da istedadlı uşaqlardan biri olan Vəlizadə Ayxandır.

Vəlizadə Ayxan Faiq oğlu Goranboy rayonunda 10 oktyabr 2008-ci ildə dünyaya göz açmışdır. Ailəsinin ilk gözağrısı olan Ayxan dünyaya gələn kimi ailəsinə sevinc, uğur bəxş etmişdir. İlk addımlarını atar-atmaz şəkilli nağıl kitablarına, dəftərə, qələmə maraq salmışdır. 2014-cü ildə Goranboy şəhəri 1 saylı tam orta məktəbin 1-ci sinfinə ilk qədəmlərini qoymuşdur. Hal-hazırda balaca Ayxan həmin məktəbin 6-cı sinfində təhsil alır. Məktəbə başladığı ilk günlərdən müəllimlərinin təqdirini qazanmış, onların qəlbində özünə taxt qurmağı bacarmışdır. Yaşıdlarından həm məntiqinə, həm də düşüncə təfəkkürünə görə seçilmişdir. Bu hal valideynlərini də çox sevindirmişdir. Ayxan bütün fənləri yüksək səviyyədə oxuyur, hər elm barədə məlumatlı olmağa can atır. Ayxanın ən sevdiyi fənlər isə ingilis dili, riyaziyyat, rus dili və tarix fənləridir. Ayxan bütün müəllimlərinə diqqətlə qulaq asır, onların bütün dediklərinə əməl edir, verdiyi tapşırıqları vaxtı-vaxtında yerinə yetirir, dərslərdə aktiv olmağa can atır. Lakin Hüsniyyə və Könül müəllimlərin yeri onun üçün ayrıdır, Ayxan onları ikinci ailəsi kimi qəbul edir. Hüsniyyə və Könül müəllim də Ayxanın xoşbəxt gələcəyi üçün əllərindən gələni əsirgəmirlər.

Ayxanın gələcəkdə ən böyük arzusu Tibb Universitetinə yüksək nəticə ilə qəbul olmaq və oranı bitirib savadlı, peşəkar və istedadlı bir həkim olmaqdır. Valideynləri də gələcəkdə onu bu peşədə-ağ xalatda görür və Ayxanı dəstəkləyirlər.

Ayxan asudə vaxtlarında idmanla məşğul olmağı çox sevir. Onun hobbisi isə maşın kolleksiyası yığmaqdır. Ayxanın həyatdakı idealı babasıdır.

Ayxanın balaca ailəsi 4 nəfərdən ibarətdir. Atası- Vəliyev Faiq İbrahim oğlu 2 aprel 1982-ci ildə Goranboy rayonunda



anadan olmuşdur, hal-hazırda isə ticarətlə məşğuldur. Anası- Vəliyeva Səidə Kərim qızı 11 iyul 1984-cü il tarixində Goranboy rayonu Balakürd kəndində dünyaya göz açmışdır. Ali təhsillidir, hal-

hazırda müəllim olaraq fəaliyyət göstərir. Ayxanın bir balaca bacısı var. Bacısı- Vəlizadə Ayan Faiq qızı 11 iyul 2011-ci ildə anadan olmuşdur.

***Biz də redaksiyamız adından Ayxan balamıza həyatında xəyal etdiyi bütün məqsədlərə, arzulara nail olmasını ümid edirik. Və inanırıq ki, daima valideynlərinin başını uca edib, onları hər zaman fərəhləndirəcək.***







# Muradova Aytac




*Uğur gedilən yoldur, çatdığın məkan deyil.*

*( Ben Svitland )*

Bir çox alimlərin, dahilərin, yazarların uğur hekayələrinə nəzər yetirdikdə heç də hamısının ilk dəfədən uğuru tapdıqlarına şahid olmuruq. Hətta bu hal onların əksəriyyəti üçün səciyyəvidir. Uğurun sirri isə mübarizə aparmaqdan keçir. Hər istəyimiz, arzumuz ilk dəfədən gerçəkləşmir, bəzən isə şans o anda bizdən yana olmur. İşin sirri isə mübarizə aparmaqdır. Ancaq və ancaq mübarizə aparmaq. Odur ki, ilk dəfədən uğursuzluğa düçar olduqda heç vaxt yorulmayın, sonuna qədər mübarizə aparın. Çünki həyatda uğrunda mübarizə apardığımız şeylər daha şirin, daha dəyərli olur. Söhbəti çox uzatmadan keçək əsas məsələyə. Bugünkü müsahibimiz Muradova Aytacdır.

Muradova Aytac Rüfət qızı 6 avqust 2005-ci ildə Naftalan şəhərində dünyaya göz açmışdır. 2011-ci ildə Goranboy şəhəri 2 saylı tam orta məktəbin 1-ci sinfinə addım atmışdır. Hal-hazırda həmin məktəbin 9-cu sinfində təhsil alır. Öz istedadı, dünyagörüşü, təlim-tərbiyəsi ilə müəllimlərinin qəlbinə yol tapıb. Müəllimlərinin hamısı Aytac haqqında ürəkaçan, xoş sözlər deyirlər. Tez bir zamanda məktəbə və dərslərinə adaptasiya olan Aytac dərslərində olduqca bacarıqlıdır. Onun ən sevdiyi fənlər riyaziyyat, ingilis dili, idmandır. Ən sevdiyi müəllimləri soruşduqda isə Aytac Natella, Billurə və Sevda müəllimləri çox sevdiyi bildirdi. Lakin buna baxmayaraq, Aytac bütün müəllimlərinə hörmət bəslədiyini də vurğuladı.

Müsahibəmiz zamanı bəlli oldu ki, Aytacın çox böyük bir arzusu var və o arzunun həyata keçməsi üçün çox çalışır. Aytacın arzusu Bakı Ali Neft Məktəbinə (BANM) yüksək nəticə ilə daxil olmaqdır. Aytac bu arzusunun reallaşmasını çox istəyir, bunu üçün çox çalışır, əllərindən gələnin ən yaxşısını etməyə çalışır. Bunu görən valideynləri Aytacı daha da həvəsləndirir, ona ürək-dirək verirlər. Onlar da qızlarının xoşbəxt gələcəyinin olmasını istəyirlər. Hansı valideyn istəməzki?. Müəllimləri də Aytaca məqsədinə gedən yolda daim kömək olur, ona stimul verirlər. Ümid edirik ki, Aytac qızımız bu böyük arzusuna qovuşar.

Aytacla müsahibəmiz zamanı öyrəndik ki, onun bir sıra uğur və nailiyyətləri var. Aytac şahmat və voleybol üzrə olan məktəb yarışında 2-ci yer tutmuş, diplomlarla təltif edilmişdir. Aytac boş zamanlarında üzmək,




voleybol və şahmat

oynamaq, musiqi dinləməyi çox sevir. Artıq bunlar Aytac qızımızın hobbisinə çevrilmişdir.

Aytacın ailəsi 4 nəfərdən ibarətdir. Atası- Muradov Rüfət Nəsib oğlu 29 noyabr 1978-ci ildə Goranboy şəhərində anadan olmuşdur, qaynaqçıdır. Anası- Muradova Elnurə Kamran qızı 6 mart 1985-ci ildə Yevlax rayonu Qoyunbinəsi kəndində doğulmuşdur, sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Aytacın idealı da məhz anasıdır, Aytac anası kimi dünyagörüşlü olmaq istəyir. Aytac evin ilk övladıdır. Onun balaca qardaşı var. Muradov Tural Rüfət oğlu 27 aprel 2007-ci ildə anadan olmuşdur. Aytac qardaşına yaxşı örnək olmağa çalışır.

Biz də redaksiyamız adından Aytacı təbrik edirik. İnanırıq ki, gələcəyin peşəkar və mütəxəssis kadrlarından biri kimi çox yüksəklərdə olacaq.





# Həsənov Mahmud



*İnsan sahib olduqlarının deyil, reallaşdırmaq istədiklərinin cəmidir.*
*( Sartr )*

İndi dünya ölkələrinə inteqrasiyası vacib olduğu, intellekt savaşı gedən dövrdür. Torpaqlarımızın işğaldan azad edilməsi, millətimizin azad, firavan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən vətəndaşlara böyük ehtiyacımız var. Çünki elmi biliklərə malik bir ölkənin gücü, qüdrəti böyük olar. Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan insan məğlubedilməzdir. Bugünkü qəhrəmanımız da gələcəyin ziyalısı, indinin biliklə silahlananı Həsənov Mahmuddur.

Həsənov Mahmud Zabil oğlu 7 mart 2009-cu il tarixində Goranboy şəhərində dünyaya göz açmışdır. 2015-ci ildə Mahmud təhsil ocağı sayılan-məktəbə ilk addımlarını atmışdır. Hal-hazırda Mahmud Goranboy şəhəri 2 saylı tam orta məktəbin 5-ci sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən dərslərinə olan marağı balaca Mahmudu digər yoldaşlarından fərqləndirib. Mahmud bütün fənləri yüksək səviyyədə oxuyur. Qazandığı bilikləri özündə bir sərvət kimi saxlayan və daha da irəliyə aparmağa çalışan şagirdlərdən biridir Mahmud. O, təhsilin, savadın insan həyatındakı önəmini də, vacibliyini də yaxşı başa düşür, insan həyatında faydasını da dərk edir. Müsahibəmiz zamanı Mahmud qeyd etdi ki, ən sevdiyi fənlər riyaziyyat, tarix, ingilis dili, rus dili və informatikadır. Mahmud bütün müəllimlərinə hörmət edir, onların sözlərinə qulaq asır. Ən sevdiyi müəllimlər isə Lamiyə müəllim, Məruzə müəllim, Lalə müəllim, Tahirə müəllim, Aysel müəllim və Aygün müəllimdir. Bu müəllimləri hər zaman çalışır ki, Mahmudun parlaq gələcəyi üçün əllərindən gələni etsinlər. Mahmud da müəllimlərini başını uca edir. O, məktəbdəki savadına, təlim-tərbiyəsinə, istedadına, dünyagörüşünə, düşüncə təfəkkürünə görə bir çox diplomlar, fəxri fərmanlar, medallar və təltifnamələrlə məktəb rəhbərliyi tərəfindən qiymətləndirilmişdir.

Hər uşağın qovuşmaq istədiyi arzusu olduğu kimi Mahmudun da kiçik qəlbinin böyük arzusu vardır. Onun gələcəkdəki ən böyük arzusu ali təhsil alıb savadlı və tanınmış iqtisadçı olmaqdır. Ölkəmizin iqtisadi cəhətdən çiçəklənməsini görmək isə ona sevinc bəxş edir. Əgər bir ölkənin iqtisadiyyatı güclüdürsə, o ölkə daim çiçəklənəcəkdir. Valideynləri də onu bu yolda dəstəkləyir, Mahmudu vətənə layiq oğul kimi



yetişdirirlər.

Mahmud asudə zamanlarında, əsasən, ingilis dilində çizgi filmlərinə baxmağı, mütaliə etməyi çox sevir. O izah etdi ki, bununla dil biliklərini daha da zənginləşdirir, çünki bir iqtisadçının ölkəsini təmsil etməsi üçün ona dil bilikləri şərtdir. Ən sevdiyi hobbiləri isə velosiped sürmək, idmanla məşğul olmaq və musiqiyə qulaq asmaqdır.

Vətənpərvər oğul kimi yetişdirilən Mahmudun kiçik, amma sevgi dolu ailəsi 4 nəfərdən ibarətdir. Onun həyatdakı idealı məhz atasıdır. Atası-Həsənov Zabil Zakir oğlu 10 avqust 1984-cü ildə Kəlbəcər şəhərində dünyaya göz açmışdır. Zabil bəy hal-hazırda Kəlbəcər rayonu İcra hakimiyyətinin Çəpli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəli müavini vəzifəsində çalışır. Anası- Həsənova Sahilə Musa qızı 14 mart 1988-ci ildə anadan olmuşdur və hal-hazırda evdar xanımdır. Mahmudun bir qardaşı var. Həsənov Məhəmməd Zabil oğlu da qardaşı Mahmud kimi şagirddir, 7-ci sinifdə təhsil alır.

***Biz də öz adımızdan Mahmud balamıza gələcək həyat yolunda uğurlar diləyir, bütün arzularına çatmağı arzu edirik. Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olsun və səsi daim ucalardan gəlsin. Yolu açıq olsun!***



Goranboy rayon Gənclər və İdman İdarəsi
YAP Goranboy rayon Təşkilatı

FƏXRİ FƏRMAN

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş şahmat üzrə rayon birinciliyində oğlanlar 5-10 yaş qrupunda II yeri tutduğuna

görə

Həsənov Mahmud

təltif edilir

Gənclər və İdman İdarəsinin rəisi: E.R.Həsənov

YAP Goranboy rayon Təşkilatının sədri: E.S.İsmayılov

Goranboy rayonu
25 aprel – 05 may 2017-ci il



TƏRİFNAMƏ

Goranboy Şəhər 2 nömrəli tam orta məktəbin IV b sinif şagirdi

Həsənov Mahmud Zabil o.

şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi ...dilə məktəb rəhbərliyi tərəfindən keçirilən monitorinq ...sində I yer tutduğuna görə

TƏLTİF EDİLİR

MƏKTƏB DİREKTORU: A.Musayeva



# Həsənov Məhəmməd



*Kitablar qocalıqda ən yaxşı dost,*
*cavanlıqda ən yaxşı rəhbərdirlər.*
*( Smayis )*

Təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi onun təhsili ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı keçirilən tədbirlər bunu deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Gələcəyimizi inşa edənlərdən biri də bugünkü müsahibimiz Həsənov Məhəmməddir.

Həsənov Məhəmməd Zabil oğlu 3 dekabr 2006-cı ildə Goranboy şəhərində dünyaya göz açmışdır. Məhəmməd 2013-cü il sentyabr ayının 15-də Goranboy şəhəri 2 saylı tam orta məktəbdə təhsil almağa başlamışdır. Hal-hazırda həmin məktəbin 7-ci sinfində oxuyaraq öz təhsilini davam etdirir.

Artıq 7 ildir təhsil almasına baxmayaraq, əlaçı və nümunəvi şagird kimi özünü tanıtmağı bacarmışdır. Məhəmməd məktəbə qədəm qoyandan bugünə kimi müəllimlərinin hörmətini qazanmağı bacarmışdır. Onun sevgisini və rəğbətini qazanmış müəllimləri Məruzə müəllim, Könül müəllim, Tərанə müəllim və Aysel müəllim olmuşdur. Məhəmməd müəllimləri sayəsində dərslərini dərindən mənimsəmiş, istedadlı şagird adını almışdır.

O, hər zaman müəllimlərinin verdiyi tapşırıqları vaxtı-vaxtında yerinə yetirmiş, dərslərinə məsuliyyətlə yanaşmışdır. Məhəmmədin ən sevdiyi fənlər isə riyaziyyat, tarix, ingilis dili, informatika, rus dili və kimyadır.

Məhəmmədin gələcəkdəki ən böyük arzusu hüquq fakültəsinə yüksək nəticə ilə qəbul olmaq və oranı bitirib savadlı peşəkar hüquqşünas olmaqdır. Məhəmməd vətəndaşların hüquqlarını qoruyan vicdanlı bir hüquqşünas olmaq istəyir. Valideynləri də ona bu yolda ürək dirək verirlər.

Məhəmməd boş zamanlarında daha çox dərsləri ilə məşğul olur, bəzi vaxtlar isə internetdə maraqlı videolar izləyir. Ən sevdiyi hobbisi isə şahmat oynamaqdır. Məhəmməd məktəb rəhbərliyi tərəfindən təlim-tərbiyəsinə və savadına görə bir sıra fəxri fərmanlar və medallarla təltif olunmuşdur.

Məhəmməd ailəsinin ilk övladı, ilk gözağrısıdır. O, hörmət və sevgi mühitində



böyümüşdür. Onun həyatdakı idealı məhz atasıdır. Atası-Həsənov Zabil Zakir oğlu 10 avqust 1984-cü ildə Kəlbəcər şəhərində dünyaya göz açmışdır. Zabil bəy hal-hazırda Kəlbəcər rayonu İcra hakimiyyətinin Çəpli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəli müavini vəzifəsində çalışır. Anası- Həsənova Sahilə Musa qızı 14 mart 1988-ci ildə anadan olmuşdur və hal-hazırda evdar xanımdır. Məhəmmədin bir balaca qardaşı vardır. Qardaşı- Həsənov Mahmud Zabil oğlu 5-ci sinifdə təhsil alır. Məhəmməd daim qardaşına dəstək olur, ona ev tapşırıqlarında kömək edir.

***Biz də kollektivimiz adından Məhəmməd balamıza uğurlarının davamlı olmasının arzulayırıq. Gələcəyin peşəkar hüquqşünası olub, daim ailəsinin fəxri olsun!***



FƏXRİ FƏRMAN

Həsənov Məhəmməd

TƏLTİF EDİLİR

GORANBOY RAYONU



FƏXRİ FƏRMAN

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş şahmat üzrə rayon birinciliyində

Həsənov Məhəmməd

təltif edilir

Gənclər və İdman İdarəsinin rəisi: E.R.Həsənov

E.S.İsmayılov



# İsayeva Nurcan



*Elmin cövhəri qızıl kimidir, köhnəldikcə təzələnir.*

*( Əhvədi Marağayi )*

Təhsil inkişafın ön cebhesidir. Bir çox hallarda haqqında danışdığımız gələcək gozlediyimizden daha tez baş verir. Bu prosese hazırlıq təhsildən başlayır və ailə ilə bərabər müəllimlərin timsalinda gerçekleşir. Müəllim şagirdin qabiliyyətini düzgün müəyyənləşdirməkdə, ona ferdi yanaşmaqda, inkişafına düzgün istiqamət verməkdə yardım göstərir. Jurnalımızın seçilen qəhrəmanlarından biri Nurcan İsayevadır.

İsayeva Nurcan Elnur qızı 19 mart 2007-ci ildə Goranboy rayonu Səfikürd kəndində anadan olmuşdur. 2013-cü ildə Goranboy rayonu Səfikürd kənd tam orta məktəbinə daxil olaraq təhsil həyatına ilk qədəmlərini atmışdır. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Məktəbə qədəm qoyandan bugünə kimi qazandığı uğurları ilə həm müəllimlərinin, həm də məktəb rəhbərliyinin rəğbətini qazanmışdır.

Bütün fənləri sevib məsuliyyətlə hazırlaşsada ən sevdiyi fənlər Azərbaycan dili, ədəbiyyat,tarix və fizika fənləridir. Onun qəlbində xüsusi yer tutan Ziyabil, Nərgiz və Kəmalə müəllimlər isə Nurcanın sevimli müəllimləridir. Artıq gələcək peşəsini də indidən seçən Nurcan gələcəkdə müəllim olmaq arzusundadır. O qeyd edib ki, hər zaman məsuliyyətli iş görmək arzusunda olub və müəllimlik şərəfli peşədir. Elə həyatdakı idealı da Nərgiz müəllimdir.

Nurcan əlaçıdır. Dərslərini yüksək səviyyədə oxuyur. Asudə zamanlarında kitab oxumağı çox sevir. Ən sevdiyi hobbisi isə musiqiyə qulaq asmaqdır.

Nurcanın sevimli ailəsi var və bu aile 6 nəfərdən ibarətdir. Atası- İsayev Elnur Səfər oğlu 24 iyul 1985-ci ildə Goranboy rayonu Səfikürd kəndində anadan olmuşdur. Anası- Məmmədova Pərvanə Ağalar qızı isə 10 fevral 1984-cü ildə Goranboy rayonu Hoylu kəndində dünyaya göz açmışdır. Hal-hazırda Pərvanə xanım Goranboy rayon mərkəzi



poçtunda işləyir. Nurcangil ailədə 4 uşaqdırlar. Nurcanın əkizi də var.

Ailənin böyük övladı olan İsayeva Ellada Elnur qızı 1 aprel 2004-cü ildə anadan olmuşdur, 10-cu sinifdə təhsil alır. Nurcanın əkizi olan İsayeva Türkan Elnur qızı Nurcanla eyni gündə 19 mart 2007-ci ildə dünyaya göz açmışdır və Nurcanla eyni sinifdə-7-ci sinifdə təhsil alır. Ailənin sonbeşiyi, kiçik övladı İsayeva Vəfa 1 avqust 2012-ci ildə anadan olmuşdur və hal-hazırda 2-ci sinifdə təhsil alır.

Biz də redaksiyasımız adından Nurcanı təbrik edir, gələcək həyatında ona uğur və nailiyyətlər diləyirik. Yolu açıq olsun!







# Hacıyeva Samirə



*Məktəb yaşadığımız dünyanı daha yaxşı qavramaq və anlamağa kömək edir.*

Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil seviyyəmizdən asılı olmayaraq bütün nailiyyətlərimizə görə müəllimə borcluyuq. Elə bir insan yoxdur ki, məktəbə getməsin, parta arxasında əyləşməsin və müəllimindən öyüd-nəsihet almasın. Çünki bu ömür yolunu çoxları addımlamağa mecburdur.

Hacıyeva Samirə İldırım qızı 5 iyun 2011-ci ildə Goranboy rayonunda dünyaya göz açmışdır. 2017-ci ildə Goranboy rayonu 2 saylı tam orta məktəbin ilk sinfinə ilk qədəmlərini atmışdır. Hal-hazırda Samirə həmin məktəbin 3-cü sinfində təhsil alır.



Bütün müəllimlərinin sevimlisi Samirənin ən sevdiyi və həvəslə oxuduğu fənlər riyaziyyat və Ana dilidir. Sevimli müəllimi isə sinif rəhbəri Esmira müəllimdir. Təhsil insana hər zaman vacibdir deyən Samirə bunu dərk edir və bildirir ki, hər bir şagird oxumağa, öyrənməyə can atmalıdır. Çünki təhsil bizim gələcək potensial inkişafımız üçün çox önəmlidir. Bir çox arzu və istekleri olan bu balaca qızımızın ən böyük arzusu orta məktəbi bitirib Tibb Universitetinin tələbəsi olmaqdır. Həkim olmaq onun ən böyük arzularından biridir. Samirə xüsusilə də uşaq həkimi olmağı çox arzulayır. Həkimlik sənətinin məsuliyyətliyini və çətinliyini dərk edən Samirə əzmlə çalışır, bu senetin insan həyatı, insan taleyi ilə bağlı olduğunu bildirib.

Samirə asudə vaxtlarında dərsləri ilə məşğul olur, təkrar edir, keçdiyi mövzuları daha da möhkəmləndirir. Samirə həm savadına, həm də təlim-tərbiyəsinə görə məktəb rəhbərliyi tərəfindən fəxri fərmanla qiymətləndirilmişdir.









Samirənin ailəsi 4 nəfərdən ibarətdir. Atası- Hacıyev İldırım Raqif oğlu 9 fevral 1985-ci ildə anadan olmuşdur. Hal-hazırda hərbçidir. Anası- Hüseynova Aynurə Çingiz qızı 16 iyun 1986-cı ildə anadan olmuşdur, evdar xanımdır. Samirənin bir böyük qardaşı vardır. Hacıyev İlkin İldırım oğlu 22 may 2009-cu ildə anadan olmuşdur,5-ci sinifdə təhsil alır.

***Biz də redaksiyasımız adından Samirəyə uğurun daim olma olmasını diləyirik. Yolu açıq olsun!***



# Pirizadə Rəvan



*Bir mədəniyyəti yox eləmək üçün kitabları yandırmağa gərək yoxdur. Oxumağın qarşısını alın, yetər.*
*( R.Bredberi )*

Azərbaycan müstəqil olmasından sonra təhsil sahəsinin inkişaf etdirilməsində Ulu Öndər H.Əliyevin böyük xidmətləri olmuşdur. Hazırda bu sahə prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təhsil millətin gələcəyidir. Gələcəyimizi inşa edənlər isə uşaqlardır. Onların istedadlı, savadlı, dünyagörüşlü, vətənpərvər yetişdirilməsi ölkəmizin çiçəkli gələcəyinin ən böyük zəmanətidir. Bugünkü qəhrəmanımız da istedadlı uşaqlardan biri Pirizadə Rəvandır.

Pirizadə Rəvan Fazil oğlu 16 noyabr 2011-ci ildə Goranboy rayonu Sarov kəndində anadan olmuşdur. 2018-ci ildə balaca balamız təhsil,elm ocağı sayılan məktəbə ilk addımlarını atmışdır. Hal-hazırda Ə. Fərəcov adına Sarov kənd tam orta məktəbin 2-ci sinfində təhsil alır. Müəllimləri ondan daim razılıqlarını bildirmişlər. Azyaşlı olmasına baxmayaraq dərin düşüncə təfəkkürünə malikdir balaca Rəvan bala. Valideynləri də onu gələcəyin ziyalısı olaraq görür. Balaca Rəvanın ən böyük arzusu gələcəkdə polis olmaq, polis uniformasını geyinib millətinin, xalqının təhlükəsizliyini və asayişini qorumaqdır. Bunun üçün dərslərinə məsuliyyətlə yanaşır, müəllimlərinə diqqətlə qulaq asır. Balaca Rəvanın ən sevdiyi fənlər Ana dili, riyaziyyat və ingilis dilidir. Ən sevimli müəllimi isə Validə müəllimdir. Buna baxmayaraq, Rəvan bütün müəllimlərinə hörmət edir. Balaca Rəvan hal-hazırda dərs əlaçısıdır, bütün dərslərini yüksək səviyyədə oxuyur. Valideynləri də bunu görüb fərəhlənirlər.

Boş zamanlarında Rəvan həm dərs oxuyur, həm də oyun oynayır. Ən sevdiyi hobbisi isə televizora baxmaqdır.

Rəvanın ailəsi 5 nəfərdən ibarətdir. Atası- Piriyev Fazil Elbrus oğlu 3 yanvar 1984-cü ildə anadan olmuşdur, orta təhsillidir, usta olaraq fəaliyyət göstərir.



Anası- Piriyeva Məsmə Seidəli qızı 6 dekabr 1990-ci ildə anadan olmuşdur. Orta təhsillidir, evdar xanımdır. Rəvan evin böyük övladıdır. Onun 1 bacısı və bir qardaşı vardır. Bacısı Pirizadə Fəridə 6 sentyabr 2018-ci ildə anadan olmuşdur, 1 yaşı var. Qardaşı Pirizadə Ramal 9 avqust 2013-cü ildə anadan olmuşdur, 1-ci sinifdə təhsil alır.

***Biz də öz redaksiyasımız adından Rəvana gələcək həyatında böyük uğurlar, xoşbəxt ailə və gözəl günler arzulayırıq. Ömür yolu parlaq, həyat yolu işıqlı olsun.***







# Quliyeva İradə



*Xəyal qanadlarında uçan elm möcüzələr yaratmağa qadirdir.*

*(Faradey)*

Elm sahəsində atılan addımlar onu söyləməyə əsas verir ki, Azərbaycan öz gələcəyini etibarlı və inamlı görmək arzusundadır. Her zaman zəngin təbii sərvətləri ilə dünyanın diqqət merkezinde olan ölkəmiz təbii ehtiyatlardan səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Jurnalımızın bu sayında istedadlı məktəblilərdən olan İradənin həyatı haqqında məlumat verəcəyik.

Quliyeva İradə Rəmzi qızı 11 aprel 2007-ci ildə Goranboy rayonunda dünyaya göz açmışdır. O, dünyaya gəlişi ilə ailəsinə sevinc bəxş etmişdir. İradə 2013-cü ildə Goranboy şəhəri 1 saylı tam orta məktəbin 1-ci sinfində təhsil həyatına qədəm qoymuşdur. Elə ilk günden oxumağa və yazmağa həvəs göstərən İradə müəlliminin diqqətini cəlb edir. O, müəlliminin söylədiklərini daha yaxşı mənimsəyir, daha da yaxşı oxumağa çalışır. Hal-hazırda İradə həmin məktəbin 7-ci sinif şagirdidir. O, məktəbin bilikli və bacarıqlı şagirdlərindəndir. Samirənin ən sevdiyi fənlər Azərbaycan dili, riyaziyyat və fransız dilidir. O, bu fənlərin dərinliklərinə yiyələnmək istəyir. Bütün müəllimlərinə hörmətlə yanaşan İradə hamısını çox sevir. O, müəllimlərinin məsləhətlərini dinləyir və nəticə çıxarmağa çalışır.

İradənin həyatda ən böyük arzusu və məqsədi Tibb Universitetinə yüksək nəticə ilə qəbul olmaq və gələcəyin istedadlı, peşəkar bir həkimi olmaqdır. O, insanların sağlamlıqlarının keşiyində durmaq arzusundadır.

İradə dərslərini yüksək səviyyədə oxumaqla yanaşı boş zamanlarında mütaliə etməyi, bədii kitablar oxumağı çox sevir. Bununla belə ən sevdiyi hobbisi isə musiqiyə qulaq asmaqdır. İradə dərs əlaçısıdır. O , hər il həm dərslərini yüksək səviyyədə oxuduğuna görə, həm də təlim-tərbiyəsinə görə məktəb rəhbərliyi tərəfindən fəxri fərmanla qiymətləndirilmişdir.

İradənin kiçik amma sevimli ailəsi 4 nəfərdən ibarətdir. Atası- Quliyev Rəmzi 24 avqust 1981-ci ildə Goranboy rayonunda dünyaya göz açmışdır, hal-hazırda maşın ustası olaraq fəaliyyət göstərir. Anası- Quliyeva Nigar 4 iyul 1987-ci ildə Göyçay rayonunda doğulmuşdur, evdar xanımdır. İradə ailəsinin böyük övladı, ilk gözağrısıdır. Onun balaca qardaşı vardır. Quliyev Ruhin 28



noyabr 2008-ci ildə Goranboy rayonunda doğulmuşdur, 5-ci sinifdə təhsil alır.

***Arzu edirik ki, İradə qızımız Azərbaycan səhiyyəsinə öz uğurları ilə imza atmış həkimlərdən olsun. Yolu daim işıqlı və açıq olsun!***









# Quliyev Fərid



*Elm əvvəlcədən yazılmış kitabdır. Və alimlər onu yazmağa deyil, oxumağa çalışmalıdırlar.*

*( Əbu Turxan )*

Müstəqil Azərbaycanımızın amalı dur-madan inkişaf etmək və daim irəliyə doğru inamla addımlamaqdır. Bütün sahələrdə olduğu kimi elm sahəsində də daim yeni ideyalar, mütərəqqi fikirlər irəli sürülür və həyata keçirilir. Bununla da ölkəmiz çiçəkli gələcəyə doğru gedir.

Jurnalımızın bu sayındakı qəhrəmanımız Quliyev Fəriddir. Quliyev Fərid Nemət oğlu 27 dekabr 2008-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. Dünyaya gəlişindən bəri öz sevimliliyi ilə ailəsinin, yaxınlarının sevimlisinə çevrilmişdir. Hələ azyaşlı olsa da Fərid daim özündən böyüklərə həvəslə baxmış, onlar kimi məktəbə getməyi arzulamışdır. Nəhayət ki, onun bu arzusu 2015-ci ilin 15 sentyabrında reallaşır. O, 2015-ci ildə Goranboy rayonu 2 saylı tam orta məktəbinə getməklə təhsil həyatına ilk qədəmlərini qoymuş, ilk dəfə əlinə qələm alın, ana və vətən sözlərini yazmağa başlayıb. Məktəbə başladığı gündən 5-ci sinfə qədər o, ilk günkü kimi məsuliyyət və həvəs hissi ilə yanaşır dərslərinə. Fəridlə müsahibəmiz zamanı bəlli oldu ki, bütün fənləri əla qiymətlərlə oxuyur. Onun ən sevdiyi fənlər isə riyaziyyat, xarici dil və təsviri incəsənətdir. Ən sevdiyi müəllimlər isə Könül müəllim, Lalə müəllim və Rəna müəllimdir. Buna baxmayaraq, Fərid bütün müəllimlərinə hörmət və dərin rəğbət hissi bəsləyir.

Fərid dərs əlaçısıdır. O çox uğurlu və nailiyyətli şagirddir. Onun kubokları, bir çox diplomları vardır. Boş zamanlarında idmanla məşğul olmağı, rəsm çəkməyi çox sevir. Hətta bunlar Fəridin hobbisinə belə çevrilmişdir.

Fəridin gələcəkdə ən böyük arzusu və məqsədi KKB işçisi olmaqdır. Bunun üçün o, çox çalışmaq lazım olduğunu da anlayır. İndidən tamamilə məqsədinə köklənir.

Fəridin ailəsi 4 nəfərdən ibarətdir. Atası-Quliyev Nemət Tapdıq oğlu 10 sentyabr 1974-cü ildə Goranboy rayonunda dünyaya göz açmışdır, hal-hazırda avtomobil mühəndisliyi vəzifəsində çalışır. Anası-Babayeva Xəyalə Hidayət qızı 10 oktyabr 1986-cı ildə Kəlbəcər rayonunda doğulmuşdur, evdar xanımdır. Fərid ailəsinin ilk gözağrısıdır, yəni böyük övladıdır. Qardaşı- Quliyev Yusif Nemət oğlu 12 fevral 2013-cü ildə anadan olmuşdur, 1-ci sinifdə təhsil alır. Fəridin həyatdakı idealı atasıdır.



Redaksiya heyətimiz adından Fəridə seçdiyi yolda uğur və nailiyyətlər arzulayırıq. Həmişə gələcəyə inamla addımlasın.









# Novruzzadə İlyas



*Elmin hüdudları üfüqü xatırladır: nə qədər çox yaxınlaşırsansa, o qədər çox uzağa çəkilir.*

*( Pyer Büast )*

Təhsil sahəsində əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ıslahatlar bu gün Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə və yeni keyfiyyətdə uğurla davam etdirilir. Həmçinin bu sahədə atılan genişmiqyaslı addımlar ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin yeni nailiyyətlər əldə etməsinə gətirib çıxarır.



Belə gənclərdən biri də Goranboy şəhəri 1 saylı tam orta məktəbin 3-cü sinif şagirdi Novruzzadə İlyas Nazim oğludur. O, 24 fevral 2011-ci ildə Gəncə şəhərində dünyaya göz açmışdır. İlyas 2017-ci ildə Goranboy şəhəri 1 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. İlyas oxuduğu məktəbin fəal şagirdlərindən biridir. Təhsil aldığı bu 3 ildə öz bilik və bacarığı ilə başqa şagirdlərdən həmişə seçilib. Həm istedadına, həm təlim-tərbiyəsinə, dünyagörüşünə, məntiqinə və nümunəvi şagird olmasına görə 2 dəfə fəxri fərmanlarla təltif olunmuşdur.

İlyas bütün dərslərinə məsuliyyətlə yanaşmış, diqqət göstərmişdir. Ən sevdiyi fənlər Ana dili və həyat bilgisi fənləridir, bunlara dərin maraq göstərir. İlyas bütün müəllimlərinə hörmət edir və onlara diqqətlə qulaq asır. Lakin aralarında elə biriləri var ki, İlyas onlara dərin rəğbət və məhəbbət bəsləyir. Onlar sinif rəhbəri Ofelya müəllim və Təranə müəllimdir.

İlyasın gələcəkdə ən böyük arzusu ürək həkimi olmaqdır. Onun məqsədi Tibb Universitetinə yüksək nəticə ilə qəbul olmaqdır. O, insanların sağlamlıqlarının qayğısına qalmaq istəyir. Boş zamanlarında televizora baxan İlyasın ən sevdiyi hobbisi şəkil çəkməkdir.

İlyasın kiçik amma çox sevimli ailəsi vardır. Atası- Novruzov Nazim İlyas oğlu 3 mart 1980-ci ildə Veyisli kəndində anadan olmuşdur. Anası- Ziyadova Rəqsanə Xəqani qızı 22 iyul 1985-ci ildə Goranboy rayonunda dünyaya göz açmışdır. Hal-hazırda o, İCHN-də baş mütəxəssis vəzifəsində çalışır. İlyasın bir balaca qardaşı vardır. Novruzzadə Emil Nazim oğlu 13 iyun 2012-ci ildə



Gəncə şəhərində anadan olmuşdur, o da qardaşı kimi əlaçıdır, fəxri fərmanla qiymətləndirilmişdir. İlyasın həyatda idealı məhz babasıdır. Çünki babasının onun belə istedadlı, dünyagörüşlü olmasında böyük rolu var. İlyas da babasını çox sevir və ona bənzəmək istəyir.

***“ Təhsil yenilikləri “ jurnalının əməkdaşları adından İlyasa gələcəkdə məşhur həkimlərimizdən olmağı diləyir, arzu edirik ki, uğur onu qarış qarış izləsin.***



# Yusibli Zibeydə



*Səhər oyananda nə edəcəyin haqda düşün, axşam yatanda isə nə etdiyin haqda.*

*(Pifaqor)*

Bir elmi kamil öyrənmək zamanla onu kamil bir şəkildə öyrədə biləcəyin anlamına gəlir. Bütün nəsihətlərdə hər zaman deyilir ki, övladlarınıza tərbiyə verməyin, onlar sizin etdiklərinizi təkrarlayır sadəcə. Odur ki, ailə nədər elmə bağlı olarsa, övladlarda da elmə, təhsilə sevgi, həvəs, maraq elə uşaq yaşlarından yaranar.

Elmli insan ən müdrik və ən kamil insan hesab edilir. Elmin zirvəsinə isə pillə-pillə çatmaq olar. Müstəqil Azərbaycanımızda bu zirvəyə çatmaq üçün gənclərimizə hər cür şərait yaradılıb.



Məqsədlərinə çatmaq istəyən şagirdlər isə bu şəraitdən istifadə etməli və öz gələcək karyeralarını qurmalıdırlar. Məhz bu səbəbdən elə məktəbə qədəm qoyduqları ilk gündən səylə çalışmalı, öz müəllimlərindən qaynaqlanmalıdırlar.

Jurnalımızın bu sayında müsahibimiz isə Yusibli Zibeydədir.

Yusibli Zibeydə Sərvan qızı 2012-ci il martın 17-də Şəki şəhəri Kiçik Dəhnə kəndində dünyaya göz açmışdır. Uşaqlığından bəri xəyalpərəst və sevgi dolu olan Zibeydənin inamı, xəyalları və arzuları heç zaman bitməyib. Zibeydə məktəbli olmağı, məktəbə qədəm qoymağı uşaqlığından bəri dördgözlə gözləmişdir. Nəhayət ki , onun bu xəyalı gerçəkləşib. Zibeydə 2018-ci ildə Şəki şəhəri Kiçik Dəhnə kənd 1 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub, dəftər qələm tutmağa başlayıb. Ana, vətən sözlərini yazıb. Zibeydə təhsil həyatına çox uğurla başlamışdır. Tez bir zamanda ailəsinin və müəllimlərinin etimadını doğruldan balaca qızımız ibtidai sinifdə valideynlərinin qəlbində özünə taxt qurur. Onun əzmi və istəyi müəllimlərində ona qarşı xüsusi sevgi və diqqət yaradır. Bu səbəbdəndir ki, hər zaman uğur qazanacığına inanırlar.

Zibeydə hal-hazırda Şəki şəhəri Kiçik Dəhnə kənd 1 saylı tam orta məktəbin 2-ci sinfində təhsil alır. O, dərslərinə xüsusi diqqət ayırır və bilir ki, uğurun yolu məhz çox çalışmaqdan keçir. Müəllimlərinin hamısına olan sevgi və hörmətindən danışsa da, Kəbirə müəllimi daha çox sevdiyini hiss etdik. Zibeydə həm vətənini, həm də öz ana dilini çox sevir. Bu səbəbdəndir ki, ən sevdiyi fənn Ana dilidir. Amma o, bütün fənləri həvəslə oxuyur,hamısına diqqət yetirir.

Gələcəkdə həkim olmaq istəyən qızımız bilir ki, bu məqsədinə çatmaq üçün çox çalışmalı, son dərəcə diqqətli olmalıdır. Müsahibəmiz zamanı bəlli oldu ki, Zibeydə insanların sağlamlıqlarının qayğısına qalmağı, onların səhhətləri ilə maraqlanmağı çox sevir və gələcəkdə də özünü bu sahədə savadlı bir kadr kimi görür. Həkimlik müqəddəs peşədir. Tarix boyu ulu atalarımız, babalarımız bu peşənin insanına xüsusi hörmətlə, ehtiramla yanaşmışlar. Hətta böyük hökmdarların, fatehlərin saraylarında belə həkimlərə çox hörmət edilmişdir. Müasir dövrdə isə yeni texnologiya avadanlıqlarının kəşfi ilə, yeni xəstəliklərin və onların çarələrinin Aşkar edilməsi ilə bu peşə daha da inkişaf edib. İndi savadlı bir həkim adını qazanmaq üçün çox çalışmaq, çox oxumaq, yuxusuz gecələr keçirmək, diqqətli olmaq, çoxlu elmi-tibbi kitablar oxumaq vacibdir. Zibeydənin potensialından görünür ki, o bunların hamısına nail olacaq.

Zibeydə boş vaxtlarında rəsm çəkməyi



sevir. Hətta o bununla mənəvi rahatlıq tapdığını da inkar etmir. Hətta rəsm çəkmək Zibeydənin ən sevdiyi hobbisidir.

Hər insanın xüsusən də uşaqların həyatda idealı, oxşamaq istədiyi şəxs olur. Zibeydənin də həyatda idealı məhz atasıdır.

Zibeydənin ailə tərkibi 4 nəfərdən ibarətdir. Atası-Yusibov Sərvan Kərəm oğlu ticarətlə məşğuldur, bu sahədə çalışır. Anası-Adamova Zəminə Mövlüd qızı isə evdar xanımdır.

Zibeydənin bir qardaşı var. Qardaşı-Yusibov Abdulla ilə daim bir-birlərinə dəstək olurlar.

***Biz də redaksiyasımız adından Zibeydəni təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, ömür yolu parlaq, gələcəyi işıqlı olsun. Daim qazandığı uğurlarla valideynlərinin başını uca tutsun*.**



# Məmmədov Elnar



*Görmək və hiss etmək mövcud olmaq, düşünmək isə yaşamaq deməkdir.*
*(U.Şekspir)*

Elm insan həyatını işıqlandıran bir çıraqdır. Bir ərəb atalar sözünə görə, bilikli adamın bir günü nadan adamın bütün ömrünə bərabərdir. Təhsil və bilik insan həyatında böyük rol oynayan ən böyük amillərdəndir. Eyni zamanda öz biliyindəndə də yaxşı yöndə istifadə etmək böyük məharət istər. Elə bu sözlərimizdən yola çıxaraq indi isə keçək jurnalımızın bu sayındakı qəhrəmanımıza.

Məmmədov Elnar Elçin oğlu 5 avqust 2010-cu ildə Şəki şəhəri Kiçik Dəhnə kəndində dünyaya göz açmışdır. Dünyaya göz açması ilə valideynlərinə və bütün sevənlərinə sevinc, hüzur bəxş edən balaca balamız Elnar hələ körpəlikdən məktəbə gedəcəyi anın xəyalını qurmuş, dəftərə ,qələmə , rəngli karandaşlara maraq salmışdır. Günlər günləri, aylar ayları, illər illəri itələyir və nəhayət ki, vədə yetişir. Elnar hər anını xəyal etdiyi günə qovuşur. 2016-cı ildə o, Şəki şəhəri Kiçik Dəhnə kənd 1 saylı tam orta məktəbin 1-ci sinfinə ilk qədəmlərini atır. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir.

Məktəbə başladığı ilk günlərdən yaxşı oxuyanlar zirvəsinə adını yazdırır, dərin düşüncə tərzi və intellekti ilə digərlərindən fərqlənir. Müəllimləri o zamandan hiss edirdilər ki, Elnar böyüyüb daha da güclü oxuyacaq, elmə, biliyə, təhsilə olan içindəki həvəs alovu heçvaxt sönməyəcək. Ailəsi də ilk qığılcımları hələ Elnar məktəbə getməzdən qabaq hiss etmişdi.

Təhsil aldığı illər ərzində o, özünü savadlı, bacarıqlı və istedadlı şagird kimi tanıtmışdır. Elnar dərslərinə daim məsuliyyətlə hazırlaşır, onlara yüksək həssaslıqla yanaşır, müəllimlərinin ürəyini qazanmağa çalışır. Bunu artıq o bacarıb.

Bütün fənləri sevən və onları həvəslə oxuyan Elnar Ana dili fənninə daha çox önəm verir. O deyir ki, ən böyük cəhalət Ana dilinə həvəssizlikdən başlayır.

Bütün müəllimlərini sevən və hörmət edən Elnar elə bir müəllim də var ki, ona daha çox bağlıdır, qəlbində yeri apayrıdır. O Vüsalə müəllimdir. Elnar belə savadlı, təhsilli olmağını Vüsalə müəllimə borclu olduğunu bildirib. Vüsalə müəllim də Elnarın öz potensialından istifadə etməsi üçün əllərindən gələni əsirgəmir.

Elnar artıq gələcəkdə özünü hansı peşədə görmək istədiyini də seçib. Onun həyatdakı



ən böyük arzusu Tibb Universitetinə daxil olmaq, oranı yüksək nəticə ilə bitirib savadlı, mütəxəssis həkim olmaqdır. Tarix boyu bu peşə insanlarına dərin hörmət olmuşdur. Elnar da bu böyük peşəyə yiyələnmək üçün çox çalışır, əllərindən gələni əsirgəmir. O, bu yolun çətinliyinin fərqindədir. Lakin özünə və biliyinə çox güvənir. Bu yolda ailəsi və müəllimləri də Elnarı dəstəkləyir.

Elnar boş zamanlarında kitab oxumağı və mütaliə etməyi çox sevir. O, bununla öz dünyagörüşünü artırdığını qeyd edir. Hətta kitab oxumaq Elnarın hobbisinə çevrilmişdir.

Elnarın ailəsi 4 nəfərdən ibarətdir. Atası-Məmmədov Elçin Şahin oğlu və anası-Məmmədova Günay Salim qızı övladlarına daim dəstək olur, onlara arxa-dayaq dururlar. Elnarın bir qardaşı- Məmmədov Eltac Elçin oğlu vardır. Elnarın həyatda idealı babasıdır.

***Biz də redaksiyasımız adından Elnara uğurlar, bol nailiyyətlər diləyirik. İnanırıq ki, o məqsədinə çatacaq və arzuladığı həkimlik peşəsinə yiyələnəcəkdir.***







# Mirəşova Lalə



*Heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür.*
*(Nəriman Nərimanov)*

Müstəqil Azərbaycanımızın amalı durmadan inkişaf etmək və daim irəliyə doğru inamla addımlamaqdır. Bütün sahələrdə olduğu kimi elm sahəsində də daim yeni ideyalar, mütərəqqi fikirlər irəli sürülür və həyata keçirilir. Gələcəyimiz olan uşaqlar isə elmin bütün dərinliklərinə yiyələnməli, gələcəkdə uğurlar əldə etməyə çalışmalıdırlar. Bunun üçün dövlətimiz təlim-tədris müəssisələrində hər cür şərait yaradıb. Məktəblər müasir avadanlıqlarla və texniki vəsaitlərlə təmin olunub. Elmin inkişaf etdiyi bir dövrdə məktəblərdə təhsil alan şagirdlər ali məktəblərə qəbul olmaq üçün var qüvvələri ilə və məsuliyyətlə çalışırlar.

Jurnalımızın bu sayında haqqında söz açacağımız, elm-bilik qazanmağı qarşısına amal qoymuş istedadlı məktəblilərimizdən biri də Mirəşova Lalədir. Mirəşova Lalə Elnur qızı 14 iyun 2004-cü ildə Şəki şəhəri Kiçik Dəhnə kəndində dünyaya gəlmişdir. Dünyaya gəlişindən bəri öz sevimliliyi ilə ailəsinin, yaxınlarının sevimlisinə çevrilmiştir. Hələ azyaşlı olsa da Lalə daim özündən böyüklərə həvəslə baxmış,onlar kimi məktəbə getməyi arzulamışdır. Nəhayət ki, onun bu arzusu 2010-cu ildə reallaşır. O, 2010-cu ildə Şəki şəhəri Kiçik Dəhnə kənd 1 saylı tam orta məktəbinə ilk qədəmlərini qoyub, ilk dəfə əlinə qələm alıb, ana və vətən sözlərini yazmağa başlayıb. Hal-hazırda Lalə həmin məktəbin 10-cu sinfində təhsil alır. Məktəbə başladığı ilk günlərdən indiyə kimi böyük məsuliyyət və həvəslə yanaşmışdır dərslərinə. Lalə ilə müsahibəmiz zamanı məlum oldu ki, bütün fənləri əla qiymətlərlə oxuyur. Lakin o, riyaziyyat fənnini daha çox sevir. Lalə həmçinin bütün müəllimlərə hörmətlə yanaşsa da , onun qəlbində Samirə, Ramilə, Nübar və Aytəkin müəllimlərin yeri lap ayrıdır. Məhz elə bu müəllimlərin etdikləri fədakarlıqlar ona müəllimlik peşəsini sevdirib. Lalə gələcəkdə bir müəllim kimi çalışmaq arzusundadır. Müəllimlik müqəddəs peşədir. Müəllim elm, bilik xəzinəsinin qapılarını insanın üzünə açan bir varlıqdır.

Lalə boş zamanlarında kitab oxumağı və rəsm çəkməyi sevir. O bildirir ki, kitab oxuyarkən və rəsm çəkərkən bir anlıq da olsa bu dünyanın qayğılarından, narahatlıqlarından özümü ayırıram. Sanki başqa bir dünya, başqa bir aləm kəşf edir, oranı səyahətə çıxıram.

Lalənin bir sıra uğurları var. Əvvəla o, dərsə davamiyyətinə, dərsə məsuliyyətli yanaşmasına, nümunəvi şagird olmasına görə həm məktəb rəhbərliyi, həm də müəllimləri tərəfindən sevilir. Lalə ailəsinin, müəllimlərinin sevimlisidir. O, həmişə valideynlərinin başını uca edib. İndi isə keçək Lalənin ailəsinə.

Lalənin ailə tərkibi 5 nəfərdən ibarətdir.

Atası-Mirəşov Elnur Məhərrəm oğlu 28 fevral 1975-ci ildə anadan olmuşdur. Ticarətlə məşğuldur. Mirəşova Lyuba Aydın qızı 13 noyabr 1981-ci ildə anadan olmuşdur. Hal-hazırda evdar xanımdır.

Lalənin bir bacısı və bir qardaşı vardır. Lalə evin ortancıl övladıdır. Bacısı-Mirəşova Şəbnəm 11-ci sinifdə və qardaşı-Mirəşov Məhərrəm isə 7-ci sinifdə oxuyur.



**Biz də redaksiyasımız adından Laləyə uğur arzulayır, xəyalında olan müəllimlik peşəsinə qovuşmağını ümid edirik.**

# Mirəşova Şəbnəm



*Uğursuzluq-nələrisə yenidən, daha müdrik şəkildə başlamaq imkanıdır.*
*(Henri Ford)*



Özünü,millətini, dövlətini sevən hər bir fərd doğuşdan ölümə qədər elm, təhsil almağa çalışmalıdır. Həmçinin hər bir cəmiyyətdə elmin və təhsilin əhəmiyyəti vurğulanmalıdır. Çünki milli-mənəvi dəyərlərimizi qorumağın yeganə yolu oxumaqdan, təhsildən keçir. Vətəndaş cəmiyyətində təhsilin əhəmiyyətindən danışsaq bu sonsuza kimi davam edər. Odur ki, indidən gənc, yeni nəslə elmin, biliyin həyatda necə önəmli bir faktor olduğunu aşılamalı, onlara elm yolunda məqsədlərinə çatmaları üçün daima dəstək olmalıyıq. Çünki uşaqlar bizim gələcəyimiz, gələcəyimizin zəmanətçiləridirlər.

İndi isə keçək jurnalımızın bugünkü müsahibi Şəbnəmə.

Mirəşova Şəbnəm Elnur qızı 6 yanvar 2003-cü ildə Şəki şəhəri Kiçik Dəhnə kəndində dünyaya göz açmışdır. Şəbnəm dünyaya gəlişi ilə ailəsinə sevinc, bərəkət gətirib. Şəbnəm 2009-cu ildə göz açdığı Şəki şəhərində məktəbə-elm ocağına ilk qədəmlərini atıb. Hal-hazırda o, Şəki şəhəri Kiçik Dəhnə kənd 1 nömrəli tam orta məktəbinin 11-ci sinfində təhsil alır. Dərslərinə olan marağı və diqqəti ilə sinifyoldaşlarından daima seçilmişdir. Məktəb başladığı ilk günlərdən həm məktəb rəhbərliyinin, həm də müəllimlərinin sevimlisinə çevrilib Şəbnəm. Şəbnəm qızımız bütün fənləri məsuliyyətlə oxuyur, lakin riyaziyyat və kimya fənlərinə olan sevgisi heç bir fənlə müqayisə edilməyəcək dərəcədə çoxdur. Bunu onun müəllimləri də müşahidə edir, həmçinin Şəbnəm haqqında öz xoş sözlərini və fikirlərini bildirirlər. Şəbnəm çox aktiv şagirddir. O, məktəbin sosial-siyasi işlərində, tədbirlərdə iştirak edir. Həmçinin dəfələrlə məktəb rəhbərliyi tərəfindən təşəkkürnamələrlə, diplomlarla qiymətləndirilmişdir.

Şəbnəm bütün müəllimlərinə hörmətlə yanaşır və onları sevir. Lakin Ruqiyyə müəllim və Samirə müəllim isə Şəbnəm üçün fərqlənir, onlara daha dərin sevgi bəsləyir. Onlara bəslədiyi dərin sevgi və hörmət nəticəsində Şəbnəmin öz ürəyində də müəllim olmaq hissi var. O, gələcəkdə bu müqəddəs peşəyə yiyələnmək istəyir. Tarix boyu müəllimə, elm adamına olan hörmət danılmazdır. Hətta keçmişdə böyük, əzəmətli hökmdarlar belə durduğu məqamı məhz müəllimləri sayəsində əldə etdiklərini söyləyirlər. Müəllimlik müqəddəs peşədir. Neçə-neçə şairlər,



yazıçılar müəllimə aid əsərlər yaratmışlar:

Günəşə çatsa da nurlu taleyim
Səninlə bağlıdır arzum, taleyim
Nə bir dərdim olar, nə də bir qəmim
Sən yüz il yaşasan ilk müəllimim!

Şəbnəm ,əsasən, bütün vaxtını dərs oxumağa , elmə, təhsilə sərf edir. Lakin o kitab oxumağı, mütaliə etməyi çox sevir. Şebnəm vurğulayır ki , kitab oxumaqla o, öz məntiqini, söz yaradıcılığını inkişaf etdirir. Kitab oxumaq beyin gimnastikasıdır.

Şəbnəmin həyatda idealı babasıdır. O, babasına oxşamaq istəyir.

Şəbnəmin ailəsi 5 nəfərdən ibarətdir. Ailənin böyük qızı, ilk göz ağrısı olan Şəbnəm balamız ailəsində aldığı tərbiyəni ən yüksək səviyyədə nümayiş etdirir. Ata-anası qızlarına köməyini əsirgəmədən , həm dərslərində, həm də bütün işlərində arxa dayaq olurlar. Valideyn olaraq ən böyük istəkləri övladlarının ayaqları büdrəmədən elm və həyat yolunu uğurla davam etdirməsidir.

Atası-Mirəşov Elnur Məhərrəm oğlu 28 fevral 1975-ci ildə anadan olmuşdur. Hal-hazırda ticarət ilə məşğuldur. Anası-Mirəşova Lyuba Aydın qızı 13 noyabr 1981-ci ildə dünyaya göz açmışdır. Evdar xanımdır.

Şəbnəm evin böyük övladıdır. Onun bir bacısı və bir qardaşı vardır. Bacısı Mirəşova Lalə 10-cu sinifdə, qardaşı Mirəşov Məhərrəm isə 7-ci sinifdə təhsil alır. Şəbnəm bacı və qardaşına daim yaxşı örnək olmağa çalışır və onlara dəstək olur.

***Biz də öz adımızdan Şəbnəmi təbrik edir, ona gələcək həyatında və dərslərində müvəffəqiyyətlər arzulayırıq. İnanırıq və ümid edirik ki, rəngarəng həyat axarı və nailiyyətlər daima qızımızı təqib etsin.***

# Aysel Atayeva



*Nadanlar elmə həqarətlə baxır,savadsızlar ona heyran olur,müdriklər isə ondan bəhrələnirlər.*
*(Frensis Bekon: ingilis alimi)*

Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk Edib duymaq üçün bir vasitədir. Təsadüfi deyil ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır. Bunun üçün də yeni nəsil elmin hər detalına bələd olmalıdır. Gələcəyimizin memarlarından biri də müsahibimiz Aysel Atayevadır.

Atayeva Aysel Namiq qızı 27 iyun 2007-ci ildə anadan olmuşdur. O, 2014-cü ildə M.Pənahov adına 01 saylı tam orta məktəbinə yollanıb, burada elmlə, təhsillə tanış olub. Məktəbə başladığı ilk günlərdən fəallığı ilə seçilən Aysel məktəbi ikinci evi, müəllimlərini isə ikinci ailəsi olaraq görür. O, bütün fənlərdən yüksək qiymətlər almağa çalışır, müəllimlərinin tapşırıqlarını vaxtında yerinə yetirir. Təsadüfi deyil ki, müəllimləri tərəfindən nümunəvi, əlaçı şagird kimi qiymətləndirilir. Aysel bütün fənləri sevir, müəllimlərinin tərifini qazanmaq üçün isə daim daha yaxşı oxumağa çalışır. Dəfələrlə məktəb rəhbərliyi tərəfindən fəxri fərmanlarla təltif olunmuş, fərqləndirmə almışdır. Aysel müəllimlərinin sevgisini, qayğısını görüb gələcəkdə savadlı müəllim olmaq arzusundadır. Öz biliyindən, savadından başqa insanlara verməyə, paylaşmağa can atır. Aysel boş vaxtlarında kitab oxuyur, mütaliə edir. Onun çox möhtəşəm, maraqlı hobbiləri vardır. Ən sevdiyi isə marka kolleksiyası toplamaqdır. Aysel hər zaman həm valideynlərini, həm də müəllimlərini istər savadı, istərsə də dünyagörüşü ilə sevindirir. Ayselin həyatdakı idealı valideynləridir. Onun valideynləri də övladlarını hər mövzuda dəstəkləyir, Ayselin böyüyüb savadlı bir kadr olaraq yetişməsini formalaşdırırlar.

Aysel ən çox humanitar yönümlü fənləri sevir. Ama riyaziyyatı da öyrənib onun





incəliklərinə bələd olmaq arzusundadır. Hal hazırda Aysel M.Pənahov adına 01 saylı tam orta məktəbin 5-ci sinif şagirdidir. Eyni zamanda məktəb rəhbərliyi tərəfindən də nümunəvi şagird kimi seçilir.

Ayselin ailəsi 4 nəfərdən ibarətdir. Atası-Atayev Namiq 15 avqust 1970-ci ildə anadan olmuşdur. Anası- Atayeva Könül isə 5 yanvar 1985-ci ildə anadan

olmuşdur. Aysel valideynlərini həyatda öz idealı olaraq görür, onlara oxşamaq istəyir. Ayselin 1 qardaşı vardır. Atayev Taleh 21 yanvar 2010-cu ildə dünyaya göz açmışdır. Aysel istər dünyagörüşü,intellekti, savadı, biliyi, istərsə də nümunəvi davranışlarıyla qardaşına örnək olur, ona hər bir mövzuda kömək edərək dəstəkliyir.

***Biz də jurnalımız vasitəsilə Aysələ uğurlar arzulayır, nailiyyətlərinin bol olmasını diləyirik. İnanırıq ki, gələcəyin ən savadlı müəllimlərindən biri olacaq.***

